QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 226 (5946) **6 dekabr** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı rayonuna səfər edib*



Səh 2

7

“YAP bütün partiyaları parlament seçkilərində iştiraka, öz gücünü sınamağa çağırır”



4

Ukraynalı siyasətçi: İlham Əliyevin köklü islahatları Prezidentin xarici çağırışlara adekvat qiymət verdiyini göstərir



4

Azərbaycanda həyata keçirilən islahatlar Rumıniya KİV-lərinin diqqət mərkəzində



# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı rayonuna səfər edib*



### *Rəsmi xronika*

Prezident İlham Əliyev beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisi buraxılıb, Milli Məclisə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edilib.

***

Prezident İlham Əliyev Əlibaba Məmmədovun 90 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Finlandiya Respublikasının Prezidenti Sauli Niinistöyə təbrik məktubu ünvanlayıb. Trend-in məlumatına görə, təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Finlandiya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Bu əlamətdar gündə Sizə və dost Finlandiya xalqına ən xoş arzularımı yetirirəm".

***

Prezident İlham Əliyev Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Məhəmməd Hadinin 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub. Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov rayonda görülmüş işlər barədə Prezident İlham Əliyevə məlumat verib. Dövlətimizin başçısı müvafiq tapşırıqlarını verib.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı rayonuna səfəri çərçivəsində Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 101-117-ci kilometrlik hissəsinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verib.

Dövlətimizin başçısına Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 115-ci kilometrliyindən ayrılan Qonaqkənd-Həmyəli-İkinci Çaylı-İkinci Cabanı-Cabanı avtomobil yolu



barədə də məlumat verildi. Sonra Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxıda "ASAN Həyat" kompleksinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev ölkəmizdə vətəndaşların rahatlığı, eləcə də gənclər üçün yaradılan şəraitə görə Azərbaycan Prezidentinə minnətdarlıq etdilər. Sonda xatirə şəkli çəkdirildi.

Dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şamaxı rayonunda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılmış şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Prezident İlham Əliyev Fərdar Həsənovun mənzilində yaradılan şəraitlə maraqlandı. Dövlətimizin başçısı çay süfrəsi arxasında ailə üzvləri ilə söhbət etdi. Fərdar Həsənov və anası Xuraman Həsənova göstərdiyi yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq etdilər.

# “Rossiya-24” telekanalı “Bakutel-2019” sərgisi ilə bağlı reportaj yayımlayıb

## *Reportajda Prezident İlham Əliyevin müsahibəsi də yer alıb*

***Rusiyanın “Rossiya-24” telekanalı dekabrın 5-də XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - “Bakutel-2019”la bağlı reportaj yayımlayıb. Reportajda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi də yer alıb. AZƏRTAC “Rossiya-24”ün müxbiri Aleksandr Çernetsovun reportajını təqdim edir.***

Aparıcı: Bakı. Yenə də Formula 1-in mühərriklərinin gurultusu. Bu dəfə arzu edən hər kəs özünü əsl pilot kimi hiss edə bilər. Yürüş bolidinin super müasir simulyatoru “Bakutel” Beynəlxalq Sərgisinə gətirilib. Yüzlərlə İT şirkətinin 23 ölkədən olan təmsilçisi texnologiyaların inkişafını və bu sahədə parlaq layihələri müzakirə edirlər və əlbəttə, müqavilələr bağlayırlar. Məsələn, “Azərkosmos” və Rusiyanın peyk rabitəsi arasında əməkdaşlıq müqaviləsi imzalandı. Aleksandr Çernetsov razılaşmaların nədən ibarət olduğunu öyrənib.

Müxbir: Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - “Bakutel-2019” mahiyyətcə ən qabaqcıl İT texnologiyalarının nümayişi üçün arenadır. Hər il Bakıya, Azərbaycan paytaxtına dünyanın 50 ölkəsinin telekommunikasiya bazarının aparıcı oyunçuları gəlir. Bu il “Bakutel”də nəinki rekord sayda iştirakçı, həm də bağlanacaq müqavilələrin rekord sayı gözlənilir. Axı, bu gün Azərbaycan Xəzəryanı regionda İT texnologiyaları sahəsində aparıcı ölkədir. Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Haulin Jaon deyir:

- Təxminən 10 il əvvəl, Prezident İlham Əliyevlə görüşəndə o dedi ki, Azərbaycan neftlə zəngindir. Lakin biz anlayırdıq ki, bu ehtiyat gec-tez tükənəcək. Buna görə hələ o vaxt biz fikirləşdik ki, digər ehtiyat istiqamətlərini inkişaf etdirmək lazımdır. Təbii ki, bu mənada İKT - İnformasiya-Kommunikasiya Texnologiyaları sektoru ən mühüm idi.

Müxbir: “Bakutel-2019” yubiley sərgidir. Düz 25 il bu məkan həm aparıcı İT şirkətlərinə, həm də gənc tədqiqatçılara öz nailiyyətlərini göstərmək imkanı verir. Yeni iştirakçılar arasında İrandan olan qonaqlar var. Tərəfdaşlar kiber hücumlara qarşı İT sahəsindəki işlərini sərgidə təqdim edirlər. Digər iki qonşu stenddə isə jurnalistlərin videokameraları həqiqətən tarixi anı qeyd edir: “Azərkosmos” və Rusiyanın peyk rabitəsi ilk tərəfdaşlıq sazişini imzaladılar.

Rusiyanın “Federal Dövlət Unitar Müəssisəsi” şirkətinin biznesi inkişafı baş direktorunun müavini Kseniya Drozdova deyir:

- Kosmik imkanlarımızı birləşdirərək, biz Yaxın Şərq, Xəzər və Cənubi Afrika regionunda teleradio yayımları şirkətlərinə, rabitə operatorları şirkətlərinə daha geniş imkanlar təqdim etməyi nəzərdə tuturuq.

Müxbir: Yeri gəlmişkən, “Bakutel” təkcə biznes və strateji vəzifələr haqqında deyil. Bu, həm də əyləncədir.

Yəqin ki, bu sərginin istənilən qonağı özü üçün, öz maraqları üçün nəsə tapa bilər. Məsələn, bu Formula 1-in maksimal olaraq reallığa yaxın bolididir. Bu, əlbəttə ki, virtual olaraq trasda özbaşınalıq etmək və özünüzü Alonso kimi hiss etmək üçün nadir imkandır. Yaxud İT robotexnika. Məsələn, dünyaca məşhur robot - Almaniyadan olan rəssam, bu isə teatronikadır - tamaşaçıların sevimlisi pianoçu robot.

İnnovasiyalar Agentliyinin idarə heyətinin sədri Tural Kərimli deyir:

-Bilirsiniz, 30-cu ilədək artıq 54 peşə süni intellekt və robotexnika ilə əvəz olunacaq. Buna görə bizim üçün gənc nəsilə yaxın gələcəkdə gözlənilənləri nümayiş etdirmək vacibdir.

Müxbir: Sərginin iştirakçılarını və qonaqlarını şəxsən salamlamaq üçün bu gün Prezident və birinci xanım da gəliblər. Kanalımıza eksklüziv müsahibədə söhbət, ilk növbədə, İlham Əliyevin fikrinə görə, bu gün ən yüksək səviyyədə olan Rusiya-Azərbaycan münasibətlərindən getdi.




Prezident İlham Əliyev deyir:

-Azərbaycan müasir texnologiyaların idxalçısı, daha artıq dərəcədə idxalçısı və istehlakçısıdır. Rusiya isə inkişaf etmiş elmi potensialı və Rusiya rəhbərliyinin bu sahəyə göstərdiyi böyük diqqət sayəsində istehsalçıya çevrilir. Buna görə də ölkələrimiz arasında dostluq münasibətlərini əsas götürərək bu istiqamətdə Rusiya qurumları ilə işləmək bizim üçün çox maraqlı olardı. Çünki heç kəs üçün sirr deyil ki, bu, həm təhlükəsizlik, həm texnologiya, həm də biznes deməkdir, ümumiyyətlə, bu, ölkələrin potensialı deməkdir.

Müxbir: Bu ilin sonunadək iki ölkənin prezidentləri növbəti dəfə Moskvada görüşəcəklər. Planda, həmçinin İT texnologiyaları sahəsində ikitərəfli münasibətlərə dair məsələlərin müzakirəsi var.

# Ukraynalı siyasətçi: İlham Əliyevin köklü islahatları Prezidentin xarici çağırışlara adekvat qiymət verdiyini göstərir

***Ukraynanın Avropa Partiyasının lideri, parlamentin dörd çağırış deputatı, hüquq elmləri namizədi Nikolay Katerinçuk AZƏRTAC Dövlət İnformasiya Agentliyinə müsahibə verib.***

*- Azərbaycan və Ukrayna arasında siyasi və iqtisadi əməkdaşlığın hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?*

-Nəqliyyat-energetika və ticari-iqtisadi əlaqələr həmişə bizim əməkdaşlığımızın prioritet istiqamətləri olub. Donbasda müharibə başlanmasından sonra Ukraynada ÜDM-in 25 faiz aşağı düşməsinə baxmayaraq ölkəmizin Azərbaycanla iqtisadi əməkdaşlığı sürətlə inkişaf edir. Statistik rəqəmlər göstərir ki, ikitərəfli ticarətin həcmi ildən-ilə artır. Ukrayna neftayırma zavodlarına Azərbaycan neftinin tədarükündə, neftin öz ərazisindən Avropaya nəqlində və əlbəttə, iqtisadiyyatımıza, xüsusən neft-qaz sənayesinə sərmayələr qoyulmasında maraqlıdır. Əminəm ki, Prezident Vladimir Zelenski ölkələrimiz arasında əməkdaşlığı yeni səviyyəyə qaldıra biləcək. Axı, bu gün Prezidentimiz, hökumətimiz iqtisadi islahatların həyata keçirilməsi, sərmayələrin cəlb olunması və açıq iqtisadiyyatın qurulmasında qətiyyətli mövqe nümayiş etdirir.



*- Azərbaycan Prezidenti İlham Əliyev bir sıra irimiqyaslı energetika və infrastruktur layihələri həyata keçirir. Bu günlərdə TANAP-ın Avropa hissəsinin də açılış mərasimi keçirildi. Prezident İlham Əliyevin regionda rolunu necə qiymətləndirirsiniz?*

- İlham Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanın regionda və dünyada rolu əhəmiyyətli dərəcədə artıb. Hesab edirəm ki, o, Azərbaycanın mühüm geosiyasi mövqeyini nəzərə alaraq xarici siyasət kursunu çox savadlı müəyyən edib. Məhz onun rəhbərliyi ilə Azərbaycan Avropanın qonşuluq siyasətinə daxil edilib və Şərq tərəfdaşlığının iştirakçısına çevrilib. Onun hakimiyyəti dövründə Azərbaycanda siyasi vəziyyət daha da stabilləşib. Əlbəttə ki, sizin ölkənizin Avropa regionunun enerji təhlükəsizliyinin təmin edilməsində rolunu da qiymətləndirməmək mümkün deyil.

Axı TANAP qaz kəməri artıq energetikada böyük İpək yoluna çevrilib. Qaz kəmərinin istifadəyə verilməsindən sonra Azərbaycan uzun illər üçün Avropa İttifaqının energetika tərəfdaşına çevrilib və energetika bazarında ciddi aktor kimi çıxış edir.

Ukrayna da qaz tədarükünü şaxələndirərək bu kəmərin imkanlarından istifadə edə bilər. Bu, bizim üçün olduqca vacibdir.

*-Son aylar Azərbaycanda köklü islahatlar aparılıb. Prezident İlham Əliyev idarəetməni təkmilləşdirmək üçün kadr islahatları həyata keçirir. Bu islahatları xarici dairələrdə yüksək qiymətləndirirlər. Biz Sizin mövqeyinizi də bilmək istərdik.*

-İlham Əliyevin apardığı köklü islahatlar göstərir ki, Prezident Azərbaycanın qarşısında duran xarici çağırışlara adekvat qiymət verir və onları çox gözəl başa düşür. Birinci növbədə, mən diqqəti dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasına yönəlmiş kadr islahatlarına çəkmək istəyirəm. 2013-cü ildən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan iqtisadi islahatlar sayəsində Azərbaycan yeni Asiya pələnginə çevrilib. Əminəm ki, Prezident Vladimir Zelenskinin Azərbaycana səfəri tarixi hadisə olacaq və bizim ikitərəfli münasibətlərimizi keyfiyyətcə yeni mərhələyə qaldıracaq. Hər iki dövlət bunda maraqlıdır.

# Azərbaycanda həyata keçirilən islahatlar Rumıniya KİV-lərinin diqqət mərkəzində

***Rumıniyanın qabaqcıl KİV-ləri Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və parlamentə növbədənkənar seçkilərin təyin edilməsi barədə məlumatlar yayıb.***




Publicat 5 Decembrie, 2019 - 16:45

Curtea Constituțională din Azerbaidjan confirmă respectarea dizolvării parlamentului cu Constituția

Azerbaijan's Constitutional Court confirms compliance of parliament's dissolution with Constitution

Baku, 4 decembrie, AZERTAC

Curtea Constituțională din Azerbaidjan a organizat o ședință plenară pentru a examina cererea președintelui privind respectarea dizolvării parlamentului cu Constituția țării. Luni, cel mai înalt organ legislativ din Azerbaidjan, Milli Majlis, a adoptat un apel către președinte privind dizolvarea parlamentului și organizarea alegerilor anticipate.

La deschiderea sesiunii, președintele

ARTICOLE SIMILARE

Candidaturile Senatului pentru Curtea Constituțională

Curtea Constituțională a validat referendumul pe justiție din 26 mai

PDL atacă la Curtea Constituțională referendumul

PDL contestă bugetul la Curtea Constituțională

Ponta: Curtea Constituțională sprijină evaziunea fiscală

Noi numiri la Curtea Constituțională a României

Curtea Constituțională, veste proastă pentru penali

Klaus Iohannis atacă la Curtea Constituțională

DNA acuză Curtea Constituțională de ilegalitate

“Amosnews” agentliyi, “Ultima ora” qəzeti və “News-24hours” portalı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı, parlament Aparatının rəhbəri Səfa Mirzəyevin Konstitusiya Məhkəməsinin Milli Məclisin səlahiyyətlərinin parlamentin yeni tərkibi formalaşanadək saxlanılmasını nəzərə alması barədə bəyanatı, Prezident İlham Əliyevin beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncamı barədə məlumat verib.




# TANAP Azərbaycan və Türkiyənin Avropa məkanına verdiyi böyük töhfədir

## Prezident İlham Əliyev: *"Bu layihələrin həyata keçirilməsi Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin məhsuludur"*

***Dünyanın ən sürətli inkişaf edən ölkələrindən biri kimi xarakterizə edilən Azərbaycanda sosial-iqtisadi sahədə qazanılan nailiyyətlər beynəlxalq miqyasda da yaxından izlənməkdə, diqqətlə öyrənilməkdədir. Məhz bu faktora əsaslanaraq ekspertlərin sözlərinə görə, bu gün Azərbaycan iqtisadi sferada uğurlarla zəngin bir yolda irəliləyir və artıq özünəməxsus cəhətləri olan inkişaf modelinin əsasını qoyub. Qeyd edilənlərin məntiqi nəticəsidir ki, son bir neçə ildə Azərbaycan ümumi daxili məhsulun artım dinamikasına görə, dünya dövlətlərinin lideri statusunu daşıyır. Bunun önəmli səbəblərindən biri də Azərbaycan iqtisadiyyatının inkişafının təkcə enerji sektoru üzərində köklənməyərək, digər mühüm sferaları da əhatə etməsidir.***

İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun ümumi daxili məhsul istehsalında xüsusi çəkisinin artması, sahibkarlara yüksək dövlət qayğısı, regionların proporsional inkişafı, aparılan səmərəli islahatlar və bu qəbildən olan digər amillər Azərbaycanda qazanılan uğurların miqyasının genişlənməsinə mühüm töhfələr verir. Bununla yanaşı, iqtisadiyyatda qabaqcıl texnologiyaların tətbiqi, yüksək ixtisaslı kadr hazırlığına yetirilən diqqət, enerji resurslarından digər sahələrin inkişafı üçün istifadə olunması, Azərbaycanın qarşıdakı dövr ərzində də, sosial-iqtisadi tərəqqidə yeni möhtəşəm nailiyyətlərə imza atacağından xəbər verir. Azərbaycanın iqtisadi inkişafını səciyyələndirərkən, Prezident İlham Əliyev demişdir: "Bizim iqtisadi inkişafımız təkcə bir sektorun inkişafına bağlı deyil. Bizim siyasətimiz ondan ibarətdir ki, ölkəmizi modernləşdirək, ölkəyə ən qabaqcıl texnologiyaları gətirək. Azərbaycanda bütün iqtisadi və sənaye sahələrində ən qabaqcıl təcrübə tətbiq olunmalıdır, peşəkar kadrlar hazırlanmalıdır. Ölkəmiz uğurla inkişaf etməkdə davam edəcəkdir. Bizim təbii resurslarımız var, iqtisadi siyasətimiz var və bu, uğurlu siyasətdir. Beynəlxalq maliyyə qurumları Azərbaycanda bu sahədə aparılan işlərə çox yüksək qiymət verir. Yəni bu, həqiqəti əks etdirən qiymətdir və beləliklə, biz ölkəmizin uzunmüddətli inkişaf strategiyasını təmin edəcəyik".

### Qlobal enerji layihələri: Azərbaycanın beynəlxalq nüfuzu artır

Azərbaycanın bütün sahələr üzrə əldə etdiyi uğurlar, ölkə Prezidenti İlham Əliyevin balanslı və uğurlu xarici siyasətin nəticəsidir. Və bu gün iri layihələrin həyata keçirilməsi, o cümlədən, TANAP-ın rəsmi açılış mərasimlərinin keçirilməsi də Azərbaycan dövlətinin balanslaşdırılmış xarici siyasətinin qələbəsidir. Bu siyasət imkan verir ki, ölkəmiz dünyadakı, xüsusilə də, böyük dövlətlər arasındakı siyasi gərginliklərdən kənarda qalmaqla, öz iqtisadi maraqlarını təmin etsin. Belə ki, Qərbin Rusiyaya qarşı tətbiq etdiyi siyasi və iqtisadi sanksiyalar, onun Avropa bazarlarındakı hegemonluğuna son qoymaqla bərabər, "qoca qitə"nin Azərbaycan neft və qazına tələbatını artırıb.

Qeyd edək ki, Rusiya qaz ehtiyatlarına görə dünyada ilk yerdədir. Ona görə də, bu gün Avropa üçün Azərbaycan qazı bir ümid yeridir. Məhz bu səbəblərdən, deyə bilərik ki, Avropa artıq Azərbaycanla, nəinki geniş əməkdaşlıq edir, hətta ölkəmizin iqtisadi şərtləri ilə hesablaşır.

Bu günlərdə TANAP-ın (Transanadolu Qaz Boru Kəməri) ikinci hissəsinin istifadəyə verilməsi Azərbaycanın neft-qaz sənayesinin ən önəmli hadisələrindən biri kimi tarixə düşüb. TANAP-ın işə düşməsi Azərbaycanın təkcə neft diyarı deyil, həm də qaz ixrac edən ölkə olduğunu bir daha təsdiqlədi. Lakin TANAP elə bir qlobal layihədir ki, təkcə ölkəmiz üçün deyil, həm də region və Avrasiya məkanı üçün mühüm əhəmiyyət daşıyır.

Onu da qeyd edək ki, bu layihənin həyata keçirilməsi ideyasını irəli sürərkən, Azərbaycan artıq Bakı-Supsa, Bakı-Novorossiysk, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişindəki zəngin təcrübəyə əsaslanırdı. Üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçən BTC kimi nəhəng bir kəmərin inşası regionda möhkəm tərəfdaşlıq formatının əsasını qoymuşdu. Daha sonra BTC ilə yanaşı çəkilən Bakı-Tbilisi-Ərzurum kəməri geniş dəhlizlərə yol açmışdı. Bu gün Azərbaycanın liderliyi ilə gerçəkləşən Cənub Qaz Dəhlizinin təməli də, əslində, elə bu kəmərlə qoyulmuşdur.

Bir tərəfi CQBK-ya, digər tərəfi TAP-a bağlanan TANAP Cənub Qaz Dəhlizinin ən böyük hissəsidir. TANAP Azərbaycanın və Türkiyənin, bu iki ölkənin dövlət başçılarının birgə səyləri ilə həyata keçirilən layihədir. Odur ki, kəmərin istifadəyə verilməsi Azərbaycan-Türkiyə qardaşlığının və birliyinin növbəti bariz nümunəsini əks etdirir.

### "Layihənin həyata keçməsi Türkiyə və Azərbaycanın siyasi iradəsinin nəticəsidir"

Azərbaycan Prezidenti TANAP-ın açılışı zamanı çıxış edərək, bu layihənin həyata keçməsini iki qardaş ölkənin siyasi iradəsinin nəticəsi olduğunu bildirib: "Bildirməliyəm ki, bu layihələrin həyata keçirilməsi Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin məhsuludur, eyni zamanda, biz bunu digər ölkələrin iştirakı və özəl şirkətlərin maliyyə dəstəyi ilə reallaşdırdıq. Bu gün Cənub Qaz Dəhlizi özündə 7 ölkəni birləşdirir və bu, artıq beynəlxalq əməkdaşlıq layihəsidir. Bu layihə ölkələr arasında körpülər yaradacaq və daha böyük anlaşmaya yol açacaq".

Dövlət başçısı bu layihənin əməkdaşlıq, sabitlik, uzunmüddətli anlaşma gətirən layihə oldduğunu bildirib: "Əgər enerji layihələri, yaşadığımız bölgədə sabitlik, qarşılıqlı dəstək, anlaşma olmasaydı, bunların biri də həyata keçməzdi. Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı gündən-günə möhkəmlənir. Mən bu gün dünya miqyasında ikinci belə ölkə tanımıram ki, Türkiyə və Azərbaycan qədər birbirinə yaxın olsun. Bizim aramızdakı ticarət dövriyyəsi artır. Bu ilin 9 ayında ticarət dövriyyəmiz 40 faizdən çox artıb və 3,4 milyard dollara çatıbdır. Qarşılıqlı yatırımlar bizim qardaşlığımızı göstərir və eyni zamanda, onu göstərir ki, biz bir-birimizə güvənirik".

Prezident İlham Əliyev Türkiyənin bu gün çox güclü iqtisadiyyat kimi dünya miqyasında öz sözünü deyən güc mərkəzi olduğunu da qeyd edib: "Bu gün möhkəm Türkiyə və onun lideri inkişafı, sabitliyi təcəssüm etdirir və gələcəyə nikbinliklə baxmaq üçün imkan yaradır. Biz buna sevinirik. Çünki Türkiyənin gücü bizim gücümüzdür, Türkiyənin uğuru bizim uğurumuzdur və biz birlikdə bundan sonra da iki qardaş ölkə kimi çiyin-çiyinə irəliyə gedəcəyik. Bizim qarşımızda bütün üfüqlər açıqdır. Həyata keçirdiyimiz bu nəhəng layihələr bizim gücümüzü göstərir və bizim gücümüzü artırır. İqtisadi güc, nəticədə, siyasi gücə çevrilir. TANAP və Cənub Qaz Dəhlizi, eyni zamanda, enerji təhlükəsizliyi layihəsidir. Bu gün dünya miqyasında enerji təhlükəsizliyi haqqında danışılır və bu məsələ dünyanın gündəliyini zəbt etmişdir. Hesab edirəm ki, burada çox gözəl əməkdaşlıq formatı yaradılıb. İstehsalçı ölkə Azərbaycan, tranzit ölkələri və istehlakçı ölkələr birlikdə çalışır. Bizim mənafeyimiz də birdir, gəlirimiz də ədalətli şəkildə bölünür. Bir daha demək istəyirəm ki, bütün bu layihələr bölgədəki sabitliyi möhkəmləndirir.

Mən əminəm ki, bundan sonra da birgə həyata keçirəcəyimiz bütün layihələr TANAP kimi, Bakı-Tbilisi-Ceyhan kimi, Bakı-Tbilisi-Ərzurum kimi, Bakı-Tbilisi-Qars kimi uğurlu olacaq, Türkiyə və Azərbaycan birlikdə gələcəyə inamla addımlayacaq".

### Qarışıqlı inama söykənən uğurlu layihə

Görüşdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək, bu layihənin hər şeydən əvvəl, ölkələr arasındakı köklü dostluğun rəmzi olduğunu dedi. "TANAP bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bilmişdir" deyən Türkiyə prezidenti Azərbaycannı Prezidenti İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olduğunu bildirib: "Qardaşım İlham Əliyevin liderliyini unutmaq, əsla, mümkün deyil. Qonşumuz Gürcüstana, əməkdaşlığı ilə bu layihəyə həyat verdiyi üçün minnətdarlığımızı, xüsusilə, ifadə edirəm. Qarşıdakı dövrdə "Hamımız qazanaq" prinsipi ilə yeni layihələrə imza atacağımıza inanır, hamınızı sevgi və ehtiramla salamlayır, "Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!"

Bəli, bu qardaşlıq siyasətinin uğurlu nəticəsidir ki, qeyd olunan layihə Azərbaycan üçün həm də siyasi cəhətdən vacibdir. Ümumi desək, Azərbaycan-Türkiyə enerji layihələri Avropanın qaz tədarükünün və marşrutlarının diversifikasiyası üçün olduqca əhəmiyyətlidir.

TANAP qaz kəməri vasitəsi ilə Azərbaycan təbii qazı artıq Türkiyəyə nəql olunmağa başlayıb. Layihənin ikinci fazasını da istifadəyə verməklə, Xəzər dənizindən çıxarılan təbii qazı Avropa bazarına ixrac etmək mümkün olacaq. Belə ki, Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans-Adriatik Boru Kəməri Layihəsi (TAP) üzrə işlərin yekunlaşmasından və iki layihənin birləşməsindən sonra 2020-ci ildən etibarən, Azərbaycan qazının 10 milyard kubmetri Avropa, qalan hissəsi isə Türkiyə qaz bazarına çatdırılacaq.

### TANAP Azərbaycan üçün geosiyasi və geoiqtisadi əhəmiyyət daşıyır

İqtisadçı-ekspert Vüqar Bayramov sözügedən məsələ ilə bağlı bildirib ki, bu layihə Azərbaycan üçün geosiyasi və geoiqtisadi əhəmiyyət daşıyır: "TANAP Azərbaycan və bütövlükdə, region üçün mühüm layihələrdəndir. TANAP, eyni zamanda, Azərbaycanın strateji mövqeyini daha da möhkəmləndirməsi baxımından geosiyasi və geoiqtisadi əhəmiyyət daşıyır".

V.Bayramov, onu da vurğulayıb ki, bu layihə Türkiyə və Gürcüstan üçün də çox vacibdir: "Bu layihə, eyni zamanda, Türkiyə və Gürcüstan üçün də çox vacibdir. Gürcüstan tranzit ölkədir. Layihənin reallaşması nəticəsində Türkiyə qaz idxalından asılılığını aradan qaldıracaq. Azərbaycan Türkiyəyə qaz ixracına görə ikinci ən böyük ölkəyə çevrilmək niyyətindədir. Bu, Azərbaycan, Gürcüstan və Türkiyə strateji əməkdaşlığının daha da gücləndirməsinə təkan verir. TANAP Türkiyənin enerji təhlükəsizliyinin formalaşmasına, Cənub Qaz Dəhlizi də Türkiyə ilə yanaşı, Avropanın enerji təhlükəsizliyinin təminatına töhfə verən layihədir".

Göründüyü kimi, həyata keçirilən belə uğurlu layihələr, məhz ölkə Prezidenti İlham Əliyevin uğurlu dayanaqlı iqtisadi siyasətinin reallıqlarıdır. Bir sözlə, ölkəmiz hələ uzun müddət dövlətimizin başçısının siyasi iradəsi nəticəsində, reallaşmış təşəbbüsdən faydalana biləcək və öz enerji təhlükəsizliyini formalaşdırmış olacaq.

**RƏFİQƏ KAMALQIZI**

# "Muğam millətin ruhudur"

## *Azərbaycanın Birinci Xanımının sənət və sənətkarlara, Azərbaycan muğamlarına və xalq mahnılarına göstərdiyi diqqət davamlıdır*

***Müasir dövrümüzdə özünün yeni bir inkişaf dövrünü yaşayan Azərbaycan muğamı dövlət tərəfindən qorunur və təbliğ edilir. Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verilir.***

Bu gün Azərbaycan muğam sənətinin nüfuzlu simaları dünya miqyasında Azərbaycan muğam sənətini təbliğ edərək, bu sənəti nadir əsər tək tamaşaçılara çatdırırlar. Demək olar ki, bu gün Azərbaycan muğamı dünyanı fəth edir. Bu sənətin qocaman, yaşlı və gənc sənətkarları hər zaman öyrənir, öz üzərlərində çalışır və Azərbaycan muğamını çoxsaylı tamaşaçıya təqdim edirlər. Azərbaycan muğam sənətində dəsti-xətti ilə seçilən xanəndə, bəstəkar, xalq artisti,







Prezident təqaüdçüsü Əlibaba Məmmədovun xüsusi yeri var. Xanəndə böyük məharətlə ifa etdiyi "Rast", "Bayatı-Şiraz", "Rahab" və başqa muğam - dəsgahlarına möhürünü vurub. Dövlətimiz tərəfindən ömrünü sənətə həsr edən belə insanlara qayğı davamlıdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi Əlibaba Məmmədovun evində qonaq olması bunun təzahürüdür. Mehriban xanım Əliyevanın Ə.Məmmədovu ziyarəti, sənət xadimlərinə verilən böyük qiymətdir.

Ə.Məmmədovun bununla bağlı təəssüratlarını öyrənmək məqsədi ilə onunla əlaqə saxladıq. O, bu ziyarətin gözlənilməz olduğunu bilirməklə yanaşı, dövlətimiz tərəfindən hər zaman muğam sənətinə, bu sənəti yaşadanlara böyük diqqətin olduğunu vurğuladı. Mehriban xanım Əliyeva kimi bir şəxsiyyətin, insanın evində qonaq olması, onu qürurlandırıb. Ə.Məmmədov Mehriban xanım Əliyevanın Azərbaycan milli musiqisinin və muğamının qorunmasındakı xidmətlərindən danışdı. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı layihələrin həyata keçirildiyini bildirdi. "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunu nəfis şəkildə nəşr etmişdir. Albomda 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçaları qədim və zəngin mədəniyyətimiz barədə dinləyicilərdə geniş təsəvvür yaradır. Mehriban xanım Əliyeva o zaman Heydər Əliyev Fondunun böyük bir layihəsinə start verildiyini diqqətə çəkərək bildirib ki, yəqin ki, yadınızdadır, bizim milli sərvətimiz olan muğamın qorunmasına yönəlmiş bir layihə idi, siz böyük yardım göstərdiniz və bu illər ərzində sizin dəstəyinizlə və iştirakınızla birlikdə böyük işlər gördük: "Siz Azərbaycanın görkəmli xanəndələrindən birisiniz. Sizin özünüzə məxsus dəsti-xəttiniz var, çox gözəl səsə malik olan ustadsınız və bütün Azərbaycan xalqının sevimlisisiniz. Sizi hamı sevir. Onu da, qeyd etmək istəyirəm ki, siz Azərbaycanın milli-mənəvi ənənələrinin daşıyıcısısınız. Ona görə də, böyük hörmətə malik olan bir insansınız. Mən sizinlə ünsiyyətdə olanda, özüm üçün hər dəfə nəsə yeni bir şey aşkar etmişəm və öyrənmişəm".

Azərbaycan Birinci vitse-prezidenti "Sizin yaradıcılıq irsiniz Azərbaycan xalqının mədəni irsidir. Əlbəttə, biz bunu saxlamalıyıq, qorumalıyıq" fikrinin ifadəsi sənətkarın yaradıcılığına verilən böyük qiymətdir. Xalq mahnılarının, muğam ifaçılığının təşəkkülündə özünəməxsus yeri, xidmətləri olan ustad xanəndələrdən olan Ə.Məmmədov uzun və zəngin yaradıcılıq yoluna malikdir. Bu müqtədir sənətkarın ifasında lentə alınmış "Bayatı-Şiraz", "Çahargah", "Dəşti", "Rahab", "Şur" kimi muğamlar və onlarca başqa xalq mahnıları və təsniflər radionun "Qızıl fondu"nda saxlanılır. Azərbaycan muğamı dünya ölkələrində, birmənalı olaraq, qəbul edilir və dünyanın mədəni irs siyahısında nadir əsər tək qorunur və təqdim olunur.

"Muğam millətin ruhudur" deyən Ə.Məmmədov ruhu heç vaxt öldürməyin mümkün olmadığını bildirib.

Xalq artisti ölkəmizdə həyata keçirilən uğurlu inkişafı da diqqətə çəkib: Baxın, 15 ildə nə qədər işlər görmüsünüz, kim edə bilər? Prezidentimiz 15 ildir bizə rəhbərlik edir, xalqımızı idarə edir. Baxın, görün, Azərbaycan o Azərbaycandır, Bakı o Bakıdır?.. Bilirsiniz, mən siyasətçi deyiləm, mən muğam ifaçısıyam, azdan-çoxdan şeiriyyət bilirəm, bir də muğamat bilirəm. Başqa bir şeylə işim yoxdur. Amma gözüm görür də, vallah. Bəzən deyirəm ki, bunların ağlı yoxdur, gözləri də yoxdur? Baxmırlar, görmürlər ki, nə işlər görülür? Xalqımızın adından, musiqiçilərin adından, öz adımdan deyirəm ki, var olun, dünyada nə gözəl şeylər var, hamısı Sizə qismət olsun".

Heydər Əliyev Fondu tərəfindən Azərbaycan muğamının inkişafı və dünyada tanıdılması məqsədilə müxtəlif müsabiqələr və beynəlxalq festivallar təşkil edilərək, həyata keçirilir, müxtəlif məzmunlu layihələr gerçəkləşir. Ə.Məmmədov Mehriban xanım Əliyevaya "...Siz çox xeyirxah adamsınız. Çox xeyirxah işlər görürsünüz, zəmanəmizin Hacı Zeynalabdinisiniz" deyə bildirməsi əbəs deyildi. Mehriban Əliyevanın genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti bu fikirdə bir daha təsdiqini tapır.

Ömrünün ahıl çağını yaşayan muğam ustadı, təsniflərimizin mahir ifaçısı, Azərbaycanın, bütün türk dünyasının çox sevilən sənətkarı Ə.Məmmədovun Azərbaycanın Birinci Xanımının sənət və sənətkarlara, xüsusilə də, Azərbaycan muğamlarına, xalq mahnılarına göstərdiyi bu diqqəti hədsiz sevincinə səbəb olub. Bu, onun həyat yolunun silinməz bir tarixinə çevrilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Təmiz ətraf mühit təmiz və saf cəmiyyətdən başlayır

*Mehriban xanım Əliyevanın təşəbbüsü ilə İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar bir gündə 650 min ağacın əkilməsi təbiətin ekoloji cəhətdən sağlamlaşmasına töhfədir*

***Tarixin çətin və taleyüklü sınaqlarından çıxaraq dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilən Azərbaycan dövləti günü-gündən daha da güclənərək, iqtisadi qüdrəti, dinamik inkişafı ilə seçilən dövlətlər sırasındadır. Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə həyata keçirilən layihələr elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji və digər sahələrdə reallaşan layihələr ölkəmizin inkişafına töhfəsini verir.***



Bioloji müxtəlifliyin, həyatımızı sağlam, maraqlı və rəngarəng edən nə varsa, hamısının qorunub-saxlanmasına dünya ictimaiyyətinin töhfələr verdiyi, beynəlxalq ictimaiyyətin, siyasi və elmi dairələrin ətraf mühitlə bağlı problemlərin həllində maraqlı olduğu bir zamanda, ekoloji problemlərə də xüsusi önəm verilir. Belə ki, müasir dünyamızı narahat edən məsələlər sırasında zəngin və fərqli ətraf mühitin, planetimizin qorunması istiqamətində həyata keçirdiyi layihələr də əhəmiyyətlidir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük şair İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü həm ölkənin daha da gözəlləşməsinə, həm də canlı təbiət üçün daha yaxşı şəraitin yaradılmasına kömək edəcək. Bu təşəbbüs, həmçinin, Azərbaycanın təbii landşaftının qorunub- saxlanmasına kömək edəcək. Təbii ki, ağaclar, meşələr, yaşıllıqlar insan sağlamlığının keşikçisidir. Ağaclar atmosfer havasını oksigenlə zənginləşdirməklə yanaşı, bəzisi öz meyvəsi, çiçəyi, yarpağı, qabığı ilə xəstəliklərə məlhəm olur. Çox təəssüf ki, bəzən insanlar ağacların onların həyatı, sağlamlığı üçün nə qədər faydalı olduğunu unudur, yaşıllıqları məhv etməkdən çəkinmirlər. Dekabrın 6-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə əkiləcək 650 min ağac həm İmadəddin Nəsimin 650 illiyinə ithaf olunmuş nəcib bir addım, həm də insanları ağac əkməyə, yaşıllıqları qorumağa bir nümunədir. Bir gündə əkiləcək 650 min ağac hər il 2,6 min ton karbon qazının udulmasına səbəb olacaq. Əkiləcək ağaclar hər regionun iqlim şəraitinə uyğun seçilir, həm meyvə, həm də dekorativ ağaclar əkiləcək. Əsasən, xan çınarı, Eldar şamı, dəmirağac, qızılağac, Şərq çınarı, göyrüş, akasiya, palıd, ağcaqayın, badam, zeytun, nar, fıstıq, alma, qoz, şabalıd, ərik, xurma, fındıq, şaftalı, alça, gavalı və sair ağaclar əkiləcək. Bu təşəbbüs iqlim dəyişmələrinin təsirlərinin azaldılmasına və təbiətin ekoloji cəhətdən sağlamlaşması işinə çox böyük xidmət göstərəcək. Qeyd edək ki, on bir iqlim qurşağından doqquzunun Azərbaycanda olması ölkəmizin təbiətini çox zəngin edir. Bu zənginliyi, təbiəti qorumaq vacib amillərdəndir. Ətraf mühitin qorunması, suyun, təbiətin çirklənməməsi, qorunub-saxlanılması zəminində təbiətin zənginliyin qorumaq mümükündür. Təbii ki, təmiz ətraf mühit təmiz və saf cəmiyyətdən başlayır. Bu baxımdan, insanlara belə fikirləri aşılamaq lazımdır. Ətraf mühitə zərər verməyən texnologiyadan istifadə olunmalı, enerji resurslarına qənaət edilməlidir. Bu və ya digər məsələlərin həlli planetimizin gələcəyini təmin edəcəkdir. Bu baxımdan bütün imkanlardan istifadə edilməli, hər bir şəxs hərəkətlərinə görə məsuliyyət daşımalıdır və ətraf mühitə sevgi kiçik yaşlarından aşılanmalıdır.






## “Ətraf mühitin qorunması və davamlı inkişafın təmin olunması üçün bütün dünyada əməkdaşlığı təmin etmək önəmlidir”

Heydər Əliyev Fondunun, ardıcıl olaraq, ekoloji problemlərin aradan qaldırılması ilə bağlı həyata keçirdiyi layihələr öz töhfəsini verir. Belə ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyadakı Azərbaycanlı Gənclər Təşkilatının sədri, Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq İctimai Birliyinin sədri Leyla Əliyevanın reallaşdırdığı layihələr sırasında “Bir planet - bir gələcək”, “Böyük Qafqaz beşliyi” və s. əhəmiyyətlidir. Belə ki, “Böyük Qafqaz beşliyi” əsasında yox olmaq təhlükəsi ilə üzləşən ayı, qartal, canavar, ceyran və Qafqaz bəbiri ilə bağlı İDEA Azərbaycan və dünya ictimaiyyətini maksimum məlumatlandıraraq, yox olmaq təhlükəsi qarşısında olan növlərin qorunub-saxlanması üçün konkret layihələr həyata keçirib. İDEA-nın “Daha yaşıl bir Azərbaycan üçün bizə kömək et!” devizi ilə həyata keçirilən ağacəkmə aksiyası çərçivəsində Eldar şamı, kiparis, Şərq çınarı və digər ağaclar əkilib. İDEA “Eko Ev” adlı layihəsi çərçivəsində isə enerji istehlakını azaldan, tullantıları utilizasiya edən və s. ekoloji amilləri nəzərə alan tədbirlər reallaşıb.

Dünyada ətraf mühitin qorunması, davamlı inkişafın təmin olunması üçün Minilliyin İnkişaf Məqsədləri qəbul edilib. Əsas məqsəd insanlara bu sahədə qərar qəbul etmək imkanları vermək, onları bu prosesə cəlb etməkdir. “Yaşıl iqtisadiyyat”ın təmin olunması ilə bağlı bütün ölkələrin üzərinə öhdəliklər düşür. Təbii ki, bu öhdəliklər yerinə yetirilsə, davamlı iqtisadi inkişaf da reallığa çevriləcək. Müasir dövrümüzdə Azərbaycanda ətraf mühitin qorunması sahəsində həyata keçirilən bu məzmunlu proqram və kampaniyalara gənclər, eləcə də, bütün insanlar dəvət edilir. Leyla xanım bu işin dialoq, liderlik və təhsil prinsipləri əsasında bütün millətə xidmət göstərmək üçün həyata keçirilməsini daim diqqətdə saxlayır. Eyni zamanda, bunun ətraf mühitin qorunması və davamlı inkişafın təmininin çox önəmli məsələ olduğunu bildirir. Bu baxımdan, bütün dünyada bu istiqamətdə əməkdaşlığı təmin etmək, tədbirlər görmək üçün regional və beynəlxalq əlaqələrin önəmliyi də əhəmiyyət daşıyır. “Ətraf mühitin qorunması və davamlı inkişafın təmin olunması üçün bütün dünyada əməkdaşlığı təmin etmək önəmlidir” deyən Leyla xanım Əliyeva dünyanın müxtəlif ölkələrində yaşayan gəncləri ekoloji məsələlərin həlli istiqamətində fəal olmağa və bir-birləri ilə əlaqələr qurmağa dəvət edib. Paytaxımızda keçirilən Krans Montana Forumu, bu baxımdan, əhəmiyyəti ilə yadda qalıb. Forumda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva müasir həyatımız üçün vacib olan ətraf mühitin qorunması sahəsində gələcəyin liderlərinin davamlı inkişafı təminində rollarını, xüsusi olaraq qeyd etmişdir. Bu gün dünyada davamlı inkişaf ətraf mühitin qorunması məsələsini aktuallaşdırıb. Bunun təmin edilməsi üçün çoxlu tədbirlərin keçirilməsi olduqca önəmli məsələlərdəndir. Hər bir ölkənin təbii ehtiyatlarının düzgün idarə olunması çox önəmlidir. Leyla xanımın fikrincə, bu iqlim dəyişikliyi nöqteyi-nəzərindən də çox önəmli bir məsələdir. “Bu dəyişiklikləri düzgün idarə etməyi bacarmalıyıq” deyən Leyla xanım dəyişikliklər prosesində gənc nəslin fəallığının önəmli olduğunu vurğulayır. Bütün bu məsələlər gənclərə aşılanır. Bu səpkidə müxtəlif tədbirlər keçirilir və sərgilər təşkil olunur. Bütün bunlar vasitəsilə Azərbaycanda və dünyada ətraf mühitlə bağlı problemlər barədə gənclərə məlumat verilir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "YAP bütün partiyaları parlament seçkilərində iştiraka, öz gücünü sınamağa çağırır"

***"Növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə əlaqədar Yeni Azərbaycan Partiyasının təşəbbüsünün cəmiyyətdə müsbət qarşılanması, radikalları çıxmaq şərti ilə demək olar ki, bütün siyasi qüvvələrdən, o cümlədən, Milli Məclisdə təmsil olunan partiyalardan gələn dəstək reaksiyaları qanunverici orqanın buraxılması təklifinin legitimliyini birbaşa sübuta yetirir.***

Belə bir təşəbbüsün irəli sürülməsi səbəbləri Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının qərarında və Milli Məclisin buraxılması haqqında deputatların Azərbaycan Respublikasının Prezidentinə müraciətində ətraflı şərh edilib. Geniş və hərtərəfli islahatlar strategiyası, cəmiyyətin yeniləşməsinin növbəti mərhələyə qədəm qoyması, mərkəzi və yerli icra hakimiyyətində, ümumiyyətlə dövlət idarəçiliyində ciddi struktur və kadr dəyişiklikləri, məhkəmə hakimiyyətində həyata keçirilən islahatlar həyatımızın ayrılmaz reallığına çevrilib. Mahiyyətcə islahatlar geriyədönməz xarakter kəsb edib və qarşıya qoyulan möhtəşəm vəzifələrə nail olunması onun ardıcıllığının təmin olunmasından, əhatə dairəsinin genişləndirilməsindən çox asılıdır. Bu mənada qanunverici orqanın yeniləşməsi tələbi obyektiv zərurətə, sosial sifarişə çevrilir". Bu fikirləri Baş nazirin müavini, YAP-ın Sədr müavini-İcra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində paylaşım etdiyi "Parlament seçkiləri və radikalların boykot çağırışları" sərlövhəli məqalədə oxucuların diqqətinə catdırıb.

Əli Əhmədov islahatların zəruriliyini vurğulayaraq bildirib: "Bütün digər sahələrdə olduğu kimi, qanunverici hakimiyyət sahəsində gözlənilən islahatlardan, Milli Məclisin geniş mənada başa düşülən yeniləşməsindən cəmiyyətin mühüm gözləntilərinin olduğu aydın hiss olunmaqdadır. Ən başlıcası, qanunverici hakimiyyətin ölkədəki inkişaf və yeniləşmə dinamikasına uyğunlaşması, islahatların hüquqi bazasının yaradılması prosesinə daha əhəmiyyətli töhfə vermək imkanlarının genişlənməsi ictimai rəydə formalaşan gözlənti kimi qeyd oluna bilər.



Görünən odur ki, Azərbaycan cəmiyyəti geniş və əhatəli islahat və yeniləşmə ab-havasında yaşamaqdadır. Qarşıdan gələn parlament seçkiləri bu ab-havanı formalaşdıran vacib səbəblərdən biridir. Dövrlə, onun tələbləri ilə ayaqlaşmağa çalışan bütün siyasi partiyalar hazırda seçkilərə hazırlaşır, baxışlarını və platformalarını cəmiyyətə təqdim etməyə çalışırlar. Parlamentin vaxtından əvvəl buraxılması təşəbbüsünün müəllifi olan Yeni Azərbaycan Partiyası bu sırada öz fəallığı ilə xüsusilə seçilir və bu tamamilə təbiidir.

Cəmiyyətin və partiyaların əksəriyyətinin seçki əhval-ruhiyyəsində olduğu bir zamanda tamam fərqli yanaşma və baxış sərgiləyən partiyalar da var. Anormal olan da məhz budur. Partiya adını daşıyan bəzi qruplar seçkiyə getmək və ya getməmək müzakirələri aparırlar. Söhbət radikallardan gedir".

Baş nazirin müavini Əli Əhmədov daha sonra qeyd edib: "Dəfələrlə qeyd edilən tezisi bir daha vurğulamağa ehtiyac yoxdur ki, hər bir siyasi partiyanın mövcudluğunu şərtləndirən əsas amil onun seçkilərdə iştirakıdır. Seçkilərdə iştirak etməmək, yaxud onu boykot etməyə çağırış, ən yumşaq şəkildə desək, partiyanın yerinə yetirməli olduğu başlıca vəzifəsinə biganə yanaşma nümunəsidir. Bunun birinci səbəbi boykota çağırış səsləndirən partiyaların ictimai dayağının, sosial bazasının zəifliyi, bəlkə də ümumiyyətlə olmamasıdır. Son dövrlərdə Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar Prezidentin və ümumiyyətlə hakimiyyətin ictimai dəstəyini daha da artırıb. Bir neçə həftə əvvəl aparılmış sosioloji sorğunun nəticələri deyilənləri sübuta yetirir. Müxalifətin reytinqi isə aşağı düşməkdə davam etməkdədir. Deməli, radikalların az-çox uğurlu sayıla biləcək seçki kampaniyası aparmaq imkanları getdikcə məhdudlaşır. İndi onlara, necə deyərlər, sifətlərini saxlamaq naminə bəhanə axtarmaqdan daha uğurlu variant qalmır. Belə bir bəhanəni isə, onlar yenə də iqtidara böhtan atmaqda, guya ölkədə seçki mühitinin olmamasında görürlər və yerinə yetirilməsi bir çox səbəblərdən mümkün olmayan şərtlər irəli sürürlər. Məsələn, radikalların irəli sürdüyü bəzi şərtlərin Konstitusiyada və Seçki Məsəlləsində dəyişikliklər edilməsini nəzərdə tutduğunu göstərmək yetər ki, seçkilərin demək olar ki, artıq elan edildiyi bir vaxtda bu şərtlərin nə qədər qeyri-ciddi, əslində isə bəhanə olduğu dərk edilsin.

Vurğulanmalı digər motiv isə radikalların ümumiyyətlə siyasi mübarizə forması kimi seçkilərdə maraqlı olmaması göstərilməlidir. Radikalların siyasi fəlsəfəsi və mədəniyyəti gərginlik və qarşıdurma yaratmaq üzərində qərarlaşıb və hakimiyyət uğrunda mübarizədə sivil formalardan istifadə etmək istəyindən uzaqdır. 30 il ərzində onların siyasi mübarizəsinin forma və üsulları dəyişməyib və yenə də XX əsrin 90-cı illərinin əvvəllərində istifadə etdikləri taktikadan kənara çıxa bilmirlər. Lakin zaman dəyişib, dövlət və hakimiyyət güclənib, əhalinin demokratiya baxışları və siyasi mədəniyyəti əhəmiyyətli dərəcədə yüksəlib. Buna görə 30 il əvvəlki metodlar sadəcə olaraq işə yaramır. Radikalların, radikalizmin iflasının səbəbi köhnə, vaxtı çoxdan keçmiş təfəkkürün daşıyıcısı olmasındadır. Hər yerdə yeniliyin, yeniləşmənin müşahidə olunduğu Azərbaycanda köhnəliyə yer yoxdur".

Radikal müxalifətin sosial dayağının olmadığını vurğulayan Əli Əhmədov sonda bildirib: "Boykot çağırışına gəldikdə isə, radikalların yetərincə sosial dayağı olsaydı, seçicilərin səsini qazanmaq haqqında düşünərdilər. Əsl həqiqət ondan ibarətdir ki, radikallar cəmiyyət tərəfindən boykot olunub və onların çağırışını kimsə nə eşidir, nə də eşitmək istəyir.

Yeni Azərbaycan Partiyası bütün partiyaları Milli Məclisə keçiriləcək seçkilərdə iştiraka, öz gücünü sınamağa, xalqla səmimi dialoq şansından faydalanmağa çağırır. İstənilən halda seçkilərə qatılmaq partiya üçün faydalıdır. Mən bunu Yeni Azərbaycan Partiyasının çoxillik seçki təcrübəsinə istinadən deyirəm. Kimsə bu şansdan istifadə etmək istəmirsə, demək niyyəti məkrlidir."

# Almaniya mətbuatı Serj Sarkisyana ittihamlar irəli sürülməsindən yazır



***Ermənistanın sabiq prezidenti Serj Sarkisyana qarşı xüsusilə iri məbləğdə maliyyə vəsaitinin mənimsənilməsi ittihamı irəli sürülüb.***

AZƏRTAC xəbər verir ki, bu barədə Almaniya ictimaiyyətini "Deutsche Welle" agentliyi məlumatlandırıb. Agentliyin məlumatında deyilir ki, sabiq prezidentə qarşı irəli sürülən ittiham təsdiq edilərsə, onu əmlakı müsadirə edilməklə, yaxud edilməməklə dörd ildən səkkiz ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir. Məlumatda o da vurğulanır ki, qətimkan tədbiri olaraq Sarkisyandan yaşayış yerini tərk etməmək barədə iltizam alınıb.

# İslahatlar dövrün tələbi və reallığıdır

## *Milli Məclisin deputatı Kamaləddin Qafarovun yap.org.az-a müsahibəsi*



***- Kamaləddin müəllim, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının parlamentin buraxılması haqqında təşəbbüsü və bunun əsasında Milli Məclisdə çoxluq təşkil edən YAP deputatlarının müraciəti hansı zərurətdən yaranmışdır?***

- Bəri başdan qeyd edim ki, istər politoloji, istərsə də dünya parlamentarizm təcrübəsində yeni olacaq fövqəladə heç nə baş verməyib. Sizin bəhs etdiyiniz və bizim hamımızın, eləcə də cəmiyyətin əksər üzvlərinin normal qarşıladığı məsələ adi bir prosedurdur. Bu tipli qərarlara dünyanın bütün parlamentli ölkələrində rast gəlmək mümkündür.

Bu məsələ ölkəmizin ali qanunvericiliklik aktlarında da öz əksini tapmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 98-ci maddəsində Prezidentin Milli Məclisi buraxa bilməsinin forma və qaydaları aydın və birmənalı şəkildə göstərilmişdir. Bu, Prezidentin müstəsna səlahiyyətidir.

Milli Məclisdə YAP-ı təmsil edən deputatların parlamentin buraxılması ilə bağlı müraciət qəbul etməsinə gəlincə isə, qeyd etməliik ki, bu addım islahatlara dəstək vermək məqsədi və xalqın etimadını yenidən qazanmaq istəyindən qaynaqlanmışdır.

Milli Məclis də Konstitusiyanın 95-ci maddəsinin 3-cü hissəsinə əsaslanaraq qərar qəbul etmişdir. Əgər çoxluq belə bir müraciət edibsə, deməli, bu, zəruri və aktualdır. Bir daha vurğulamaq istəyirəm ki, möhtərəm Prezidentimiz Konstitusiyanın 109-cu və 98-ci maddəsinə, o cümlədən Seçki Məcəlləsinin 145-ci maddəsinə əsasən seçkiləri təyin etmək səlahiyyətinə malikdir.

Partiyamızın islahatlara üz tutması, islahatların memarı olan Yeni Azərbaycan Partiyasının Sədri möhtərəm İlham Əliyevə dəstək verməsi, təbii bir prosesdir. Bu parlament islahatların əsas məqsədi ökədə gedən geniş islahatlar dalğasına sanballı bir dinamika və töhfə verməkdir. Şübhə etmirik ki, YAP-ın irəli sürəcəyi yeni namizədləri-peşəkar siyasi xadimləri, hüquqşünasları və iqtisadçıları - öz işi və davranışı ilə ölkədə hörmət qazanmış bütün kadrları xalqımız dəstəkləyəcəkdir.

***- Bu prosesi ictimai, siyasi və sosial həyatın bütün sahələrində geniş vüsət alan islahatların tərkib hissəsi kimi dəyərləndirmək olarmı?***

- Əlbəttə, şübhəsiz ki, bu, belədir. İndi genişmiqyaslı struktur, kadr və sosial islahatların reallaşdırılması məqamında parlamentin də islahatların hərəkətverici mexanizmlərindən birinə çevrilməməsi məntiqdən uzaq olardı. Əgər xatırlayırsınızsa, bu ilin aprel ayında geniş miqyaslı ədliyyə-hüquq islahatları keçirildi, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi ilə bağlı Fərman imzalandı. Məhkəmə sistemində islahatlar həyata keçirmədən, iqtisadi islahatlar dəstək olmaq qeyri-mümkündür.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin əsas məqsədlərindən biri də yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdən ibarətdir. Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunmuş mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev gənclər haqqında fəxarətli fikirlər söylədi, onlara çox dəyərli tövsiyələr verdi. Azərbaycan gəncliyi bu tövsiyələri fəaliyyətlərində daim öndə tutmalıdır. Dövlətimizin başçısı İlham Əliyevin çıxışının əsas leytmotivi ondan ibarətdir ki, Azərbaycan bundan sonrakı inkişafında da yalnız özünə güvənməlidir və bu prosesdə gənclərimiz aparıcı rol oynamalıdır. "... Gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin."

Sovetlər dönəmindən qalma bir fikir var: hər şeyi kadrlar həll edir. Müəyyən qeyd-şərtlərlə bu fikirlə razılaşmaq olar. Çünki hansı islahat olursa-olsun, o prosesdə kadrlar yerində deyilsə, uğur gözləməyə dəyməz. Prezidentimiz tərəfindən uğurla reallaşdırılan islahatlarda biri də kadr islahatıdır. Yeni kadrların irəli çəkilməsi, gənclərə etimad göstərilməsi və onların ən yüksək dövlət vəzifələrinə təyin edilməsi kadr islahatının əsas istiqamətlərindən biridir. Lakin bizim daxildən və xaricdən olan bədxahlarımız bu islahata ləkə yaxmağa, ölkəmizin, xalqımızın gələcəyi naminə reallaşdırılan bu islahata kölgə salmağa çalışdılar. Lakin Dövlət başçısı neqativ meyllərə qarşı dərhal münasibətini çildirdi və bu siyasətin davamlı və dönməz olduğunu bir daha təsdiqlədi:

"Kadr islahatları gedir, bu da zərurətdir, durğunluq yarada bilmərik, sovet dövrünün durğunluğu hələ ki, yadımızdan çıxmayıb. Ona görə kadr islahatları aparılmalıdır, ancaq təkamül yolu ilə, təbii yolla, burada da heç bir əyintilərə yol vermək olmaz. Mən bir neçə dəfə bu məsələ ilə bağlı fikirlərimi deyəndən sonra bəziləri başladılar bəzi adamların yaşını hesablamağa ki, bunun 70 yaşı var, getməlidir- qətiyyən belə şey ola bilməz. Sonra dedim mən imkan verməərəm ki, kampaniya aparılsın. Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliyi - bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq".

Gördüyünüz kimi, Azərbaycan konstruktiv, səmərəli islahatlar yoluna qədəm qoymuşdur və ölkəmizi bu yoldan heç bir qüvvə döndərə bilməz!






## Abşeron rayonunun Saray qəsəbəsində seçicilərlə görüş keçirilib

***23 dekabrda ölkəmizdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Abşeron rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində dünən Abşeron rayonunun Saray qəsəbəsində seçicilərlə görüş keçirilib.***

Tədbiri giriş sözü ilə açan YAP Abşeron rayon təşkilatının sədri Bilman Vəliyev dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri haqda danışıb, bələdiyyələrin tarixi və funksiyaları barədə tədbir iştirakçılarına geniş məlumat verib.

O, həmçinin, bələdiyyə seçkilərində partiya tərəfindən rayon bələdiyyələrinə irəli sürülmüş namizədlərin perspektivli, vətənə, dövlətə sədaqətli olduqlarını qeyd edib.

B.Vəliyev YAP-ın əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də qələbə qazanacağına əmin olduğunu qeyd edib: "Ölkə Prezidenti İlham Əliyevin daim diqqət və qayğısını öz üzərlərində hiss edən abşeronlular əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də böyük fəallıq və coşğu nümayiş etdirəcək, bu siyasi kampaniyanın yüksək səviyyədə keçirilməsinə nail olacaqlar".

Sonra YAP Abşeron rayon ağsaqqallar şurasının sədri Nadir Ağayev və "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev çıxış edərək, partiyanın bələdiyyə üzvlüyünə namizədlərinin əsas məqsədlərinin ötən bələdiyyə seçkilərində olduğu kimi, bu seçkilərdə də qalib olması və yerli özünüidarəetməni daha da inkişaf etdirmək olduğunu bildiriblər. Daha sonra namizədlərdən Təyyibə Hüseynova, Məhi Həsənov və Natiq Tahirov özləri haqda məlumat verərək seçkilərin ədalətli, demokratik şəkildə rəqabət mühitində keçəcəyinə inandıqlarını bildiriblər.

**RƏFİQƏ**

## Türkiyənin Ukraynadakı səfiri: "Azərbaycan digər ölkələr üçün örnək ola biləcək islahatlar həyata keçirir"

Güclü iqtisadiyyata və siyasi proseslərdə böyük rola malik olan Azərbaycanda son vaxtlar ciddi islahatlar həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi bu islahatlar yüksək qiymətə layiqdir. Bu fikirləri AZƏRTAC-a məxsusi müsahibəsində Türkiyənin Ukraynadakı səfiri Yağmur Əhməd Güldərə söyləyib.

Səfir bildirib ki, Azərbaycan digər ölkələr üçün örnək ola biləcək siyasi, iqtisadi və kadr islahatları həyata keçirir. "Türkiyə olaraq biz bu yolda Azərbaycana uğurlar arzulayırıq və inanırıq ki, bu islahatlar Azərbaycanın daha da güclənməsinə öz töhfəsini verəcək", - deyə səfir əlavə edib. Diplomat vurğulayıb ki, Türkiyə Azərbaycanın regionda daha da güclənməsində maraqlıdır. "Biz istəyirik ki, Azərbaycanın mövqeləri bütün dünyada daha da güclənsin", - deyə o bildirib.

# Adı qəlblərdə əbədi həkk olunmuş Ulu Öndər - HEYDƏR ƏLİYEV!

***Qarşıdan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü gəlir. Dekabırn 12-də Azərbaycan xalqı Ulu Öndərin məzarına axın edərək, bu böyük və dahi şəxsiyyətin əziz xatirəsini yad edəcəklər. Müstəqilliyimizin banisi, müasir Azərbaycanımızın adını dünyaya qızıl hərflərlə yazan Ulu Öndər Heydər Əliyev dühası daim qəlbərimizdə yaşayıb, yaşadılacaq.***

Bununla bağlı qəzetimizə açıqlama verən Yeni Azərbaycan Partiyasının təmsilçiləri də vurğulayıblar ki, Heydər Əliyev irsi daimi və əbədiyaşardır.

### YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov: "Bu uğurlu yol Heydər Əliyev yoludur"



"Ümummilli Liderimizin anım günü ərəfəsində bir araya gələrək, bu böyük şəxsiyyət barədə fikirlərimizi bölüşərkən, bir daha hiss edirik ki, Dahi Öndər Heydər Əliyev haqqında nə qədər ibrətamiz fikirlər deyilsə də, yenə də nəyi isə deməyiblər. Bax, bu hiss, bu fikir neçə illərdir ki, yaranır və bunun özü Heydər Əliyev şəxsiyyətinin alçatmaz bir zirvə olduğunu göstərir". Bunu "Səs" qəzetinə açıqlamasında YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov deyib.

Onun sözlərinə görə, Ulu Öndərimiz Heydər Əliyevin əziz xatirəsi nəinki ölkə vətəndaşları, eləcə də, bütün dünya azərbaycanlıları tərəfindən yad edilir: "Ümummilli Lider Heydər Əliyevin siyasi obrazı Azərbaycan xalqının dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin və müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Bu məqam Heydər Əliyevin Azərbaycan xalqının Ümummilli Lideri olması həqiqətinin hər kəs tərəfindən etiraflıdır. Ulu Öndərimiz mürəkkəb geosiyasi məkanda Azərbaycan kimi müstəqil dövlət qurmağı bacardı. Təsadüfi deyil ki, Onun adı Azərbaycan tarixinə görkəmli ictimai-siyasi xadim, qüdrətli dövlət adamı, müstəqil dövlətçiliyimizin memarı kimi həkk olunub".

Mehdi Balabəyov bildirib ki, Ulu Öndər Heydər Əliyev, sözün əsil mənasında, xalqının, millətinin taleyi ilə yaşayan müstəqil Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevirmək üçün rahatlıq tapmayan bir şəxsiyyət idi: "Ömrünün qalan hissəsini də xalqına qurban verməyə hazır olan Dahi Öndər Heydər Əliyev ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra xalqın inamını doğrultmaq üçün yorulmadan çalışdı, Azərbaycanı müstəqilliyini və dövlətçiliyini itirmək təhlükəsindən qurtardı. Təsadüfi deyil ki, Heydər Əliyevin xalqına, xalqın isə zəmanəmizin bu böyük şəxsiyyətinə inamı zərbməsələyə çevrildi. "Heydər-Xalq, Xalq-Heydər!" Bəli, belə bir birlik yaranmışdır".

YAP Şabran rayon təşkilatının sədri, sonda onu da vurğulayıb ki, Azərbaycanın tarix üçün qısa bir müddətdə, başqa ölkələrin onilliklər boyu keçdiyi bir inkişaf yolunu cəmi bir neçə ildə keçməsi bu birliyin təntənəsi idi: "Xalqımız öz böyük oğlunun xatirəsini daim əziz tutacaq, müəyyənləşdirdiyi yolla daha böyük zirvələr fəth edəcəkdir. Bu gün xalqımız bütün bunların şahididir və eyni zamanda, beynəlxalq aləmin ölkəmizdə gedən prosesləri yüksək qiymətləndirmələri də qeyd olunan fikirlərin məntiqi nəticəsidir".

### YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev: "Ulu Öndər Heydər Əliyev əbədi olaraq xalqımızın qəlbində yaşayacaq"



"Bu gün Azərbaycanımızın gün-gündən çiçəklənməsinin, ictimai-siyasi sabitliyin, xalqımızın rifah halının daha da yaxşılaşmasının, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasının, ümumiyyətlə, əldə edilən bütün uğurların təməlində Ümummilli Lider Heydər Əliyev tarixi siyasi-iqtisadi konsepsiyası və bu reallığı davam etdirən ölkə Prezidentimiz cənab İlham Əliyevin mütərəqqi siyasət faktoru dayanır". Bunu "Səs" qəzetinə açıqlamasında YAP Biləsuvar rayon təşkilatının sədri Kamal Mirzəyev deyib.

Onun sözlərinə görə, əldə edilən uğur və inkişaf Ümummilli Liderimiz Heydər Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir: "Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanda hakimiyyətə birinci gəlişi ilə ölkəmizin ən yeni tarixindən yeni bir tərəqqi mərhələsinin əsasını qoydusa, ikinci gəlişi ilə çətinliklə əldə etdiyimiz müstəqilliyimizin və dövlətçiliyimizin daha da möhkəmlənməsinə şərait yaratdı. Məhz buna görə də, ömrünü xalqının yolunda şam kimi əridən Ulu Öndərimiz Heydər Əliyevi xalqımız sevib və əbədi olaraq sevəcək".

Kamil Mirzəyev qeyd edib ki, bu gün Azərbaycan dövlətinin və xalqının qazandığı nə qədər nailiyyətlər varsa, bütün bunların müəllifi Heydər Əliyevdir. Belə ki, məhz Onun yürütdüyü uğurlu siyasət sayəsində bu gün ölkəmiz öz dinamik inkişaf yolunu tutub.

"Ötən il doğma xalqının etimadını qazanaraq, Azərbaycan Respublikasının Prezidenti seçilən Cənab İlham Əliyevin rəhbərliyi altında görülən işlər, xüsusilə, Azərbaycanın müxtəlif nəhəng layihələrdə iştirakçı və təşəbbüskar kimi çıxış etməsi, dünyada söz sahibinə çevrilməsi faktı əyani şəkildə göstərir ki, Ulu Öndərimiz Heydər Əliyevin ideyaları yaşayır, yaşayacaq və bu ideyalar xalqın rifahını davamlı şəkildə təmin edəcək" deyə bildirən YAP Biləsuvar rayon təşkilatının sədri onu da bildirib ki, bütövlükdə, son 16 il ərzində müvəffəqiyyətlə davam etdirilən quruculuq işləri - siyasi, iqtisadi, sosial və s. islahatlar Azərbaycanın hərtərəfli sosial-iqtisadi inkişafı, xalqın həyat səviyyəsinin yüksəldilməsi Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin unudulmaz xatirəsinə ən qiymətli hədiyyədir: "Ölkə Prezidenti İlham Əliyev Azərbaycan xalqının qarşısında duran vəzifələri belə müəyyənləşdirmişdir. "Mənim bir məqsədim var - Azərbaycan xalqına xidmət etmək, Azərbaycanı möhkəmləndirmək, ölkəmizin dünyadakı mövqelərini gücləndirmək, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün iş görmək, Azərbaycanı müasir güclü ölkəyə çevirmək". Hər birimiz əminliklə vurğulaya bilərik ki, Ulu Öndər Heydər Əliyev əbədi olaraq, xalqımızın qəlbində yaşayacaq, yaşadılacaq".

### YAP Səbail rayon təşkilatının qadınlar şurasının sədri Təranə Kərimova: "Yeni nəsil Ulu Öndərin ideyaları ruhunda böyüməlidir"



"Hər bir xalqın əsrlər boyu formalaşan dövlətçilik ənənələrinin konkret dövlət modelində gerçəkləşməsi üçün əlverişli siyasi mühit və milli iradə ilə yanaşı, güclü liderin də olması mühüm şərtlərdəndir". Bunu "Səs" qəzetinə açıqlamasında YAP Səbail rayon təşkilatının sədri Təranə Kərimova deyib.

Onun sözlərinə görə, daxilən güclü, vətənpərvər və mətin liderə malik olmayan xalqın real şansdan düzgün yararlanması, milli iradəsini ortaya qoyaraq, həqiqi müstəqillik istəyinə qovuşması da mümkün deyil: "Hansısa əlverişli mərhələdə məsuliyyəti öz çiyinlərinə götürən belə fenomen şəxsiyyətlər xalqlarının daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali məqsədlərin gerçəkləşməsində müstəsna rol oynayır, bununla da, əbədiyaşarlıq ucalığına qovuşurlar".

YAP Səbail rayon təşkilatının qadınlar şurasının sədrinin sözlərinə görə, dərin zəka sahibi olan Ümummilli Liderimiz Heydər Əliyevin bacarıqlı dövlət xadimi, təcrübəli siyasətçi, Azərbaycan dövlətçiliyinin möhkəm təməlini yaradan və onu möhkəmləndirən, davamlı inkişaf yoluna çıxaran qüdrətli şəxsiyyət kimi, həyat və fəaliyyəti müasir tariximizin mühüm mərhələsini təşkil edir: "Müasir dövlətçilik tariximiz Heydər Əliyev dühasının çoxşaxəli və məhsuldar fəaliyyətinin canlı salnaməsi olmaqla, şanlı epoxa təşkil edir. Ulu Öndərimiz ictimai fikri hər zaman dövrün keyfiyyətcə yeni və pozitiv dəyişikliklərinə hazırlamaq, yaranmış tarixi şəraitə uyğun strateji qərarlar qəbul etməklə yanaşı, fəaliyyətində daim milli maraq və mənafeləri önə çəkmiş, uzaq hədəflərə hesablanmış inkişaf strategiyası həyata keçirmişdir. Ümummilli Lider Heydər Əliyev böyük strateq kimi bir-biri ilə ziddiyyət təşkil edən iki müxtəlif ictimai-siyasi sistemdə ölkəyə inamla rəhbərlik etmiş, hər iki mərhələdə Azərbaycan dövlətinin möhkəmlənməsinə, tərəqqisinə çalışmış, xalqın mənafeyini hər zaman üstün tutmuşdur. Çünki mübaliğəsiz demək olar ki, keçən əsrin 70-ci illərindən başlayaraq, Azərbaycanın müasir tarixinin bütün mərhələləri, məhz Dahi Öndər Heydər Əliyevin adı ilə bağlıdır".

"Bu gün Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı, partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyev ideyaları ətrafında formalaşmış müstəqillik, inkişaf və tərəqqi, eləcə də, azərbaycançılıq siyasətini uğurla davam etdirir" deyə vurğulayan T.Kərimova onu da bildirib ki, ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun artması, reallaşdırılan struktur, kadr və s. istiqamətlərdəki islahatlar da həmin gerçəkliyi kifayət qədər sübut etməkdərir.

**RƏFİQƏ HÜSEYNOVA**

## Nəsimidə ilk dəfə səs verəcək gənclərlə görüş keçirilib

**Dünən Yeni Azərbaycan Partiyasi Nəsimi rayon təşkilatının qərargahında 23 dekabr 2019-cu il tarixində keçirilən bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində ilk dəfə səs verəcək gənclərlə görüş keçirilib.**




Tədbirdə YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə, icra, məhkəmə və qanunvericilik hakimiyyətində həyata keçirilən islahatlar haqqında ətraflı məlumat verib. Millət vəkili ölkədə kadr sahəsində həyata keçirilən islahatları xüsusi vurğulayaraq, gənclərin dövlət idarəçiliyində rəhbər vəzifələrə irəli çəkilməsini ölkə rəhbərinin gənclərə olan etimadı, inamı və qayğısı kimi dəyərləndirib. O, Azərbaycan gənclərinin hər zaman Prezidentin siyasətini dəstəkləmələrini və Onun arxasında monolit qüvvə kimi dayanmalarının səbəbini də, məhz bundan qaynaqlandığını bildirib. Bu il keçirilən bələdiyyə seçkilərində iştirak edən namizədlərin əksəriyyətinin də gənclər olması bir daha göstərir ki, Azərbaycan gəncliyinin dünən də, bu gün də,gələcəkdə də tutduğu yol Heydər Əliyev, İlham Əliyev yoludur.



Rayon təşkilatı gənclər birliyinin sədr müavini Söhrab Həşimov çıxış edərək, ölkə rəhbərinə gənclərə olan diqqət, qayğı, dəstək və etimada görə gənclər adından təşəkkürünü bildirib.

Rayon təşkilatının sədri Məlahət İbrahimqızı tədbirin sonunda Yeni Azərbaycan Partiyası tərəfindən Nəsimi rayon bələdiyyə üzvlüyünə irəli sürülmüş namizədlərlə tədbir iştirakçılarını tanış etdikdən sonra, gənclərimizi qarşıdan gələn bələdiyyə seçkilərində fəal olmağa YAP tərəfindən irəli sürülmüş namizədlərə səs verməyə çağırıb.

Tədbirdə gənclərə bir sıra təbliğat materialları paylanıb.

**NƏZAKƏT ƏLƏDDİNQIZI**

## İmadəddin Nəsimi 650 il - daşkəsənlilər yubileylə bağlı ağacəkmə aksiyası keçirir

*Əhəd Abıyev: "Qarlı-şaxtalı havada ağacəkmə aksiyasının keçirilməsi ilə bağlı işlərimiz tam hazır vəziyyətdədir"*

**Daşkəsəndə havanın şaxtalı olmasına və güclü qar yağmasına baxmayaraq, Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə rayon ərazisində keçiriləcək ağacəkmə aksiyasına şərait yaradılması məqsədilə bütün hazırlıq işləri görülür.**



Hazırlıq işləri ilə yerində tanış olan Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev KİV-ə verdiyi açıqlamasında bildirib ki, son günlər Daşkəsən rayonu ərazisində küləklə müşayiət olunan intensiv qarın yağması nəticəsində, bəzi problemlər yaranıb: "Buna baxmayaraq biz, daşkəsənlilər dekabrın 6-da dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar rayon ərazisində ağacəkmə aksiyası keçirəcəyik. Daşkəsən rayonu ərazisində keçiriləcək ağacəkmə aksiyasında, çoxsaylı ağacların əkilməsində idarə, müəssisə və təşkilatların kollektivləri, bir sözlə, rayon ictimaiyyəti yüksək səviyyədə iştirak edəcəkdir. Bu qarlı-şaxtalı havanın bizə heç bir təsiri olmayacaq, ağacəkmə aksiyasının keçirilməsi ilə bağlı işlərimiz tam hazır vəziyyətdədir".



Rayon icra hakimiyyətinin başçısı Ə.Abıyevin tapşırığına uyğun olaraq, rayon mərkəzində, o cümlədən, kəndlərarası avtomobil yollarında qarın nəqliyyatın hərəkətinə çətinlik yaratmaması üçün müvafiq yol xidməti strukturları səfərbər olunaraq, təmizləmə işləri aparılıb. Sürüşkən olması ehtimal olunan ərazilərə qum-duz qarışığı səpilib. Qazın, elektrik enerjisinin və içməli suyun verilişində fasilələr yaranmayıb. Rayonun bütün idarə, müəssisə və təşkilatları işlərini hava proqnozlarını nəzərə almaqla qururlar. Həmçinin, rayon rəhbəri 5 saylı körpələr evi-uşaq bağçasında olub, bağçadakı istilik təchizatının vəziyyəti ilə bağlı rayon üzrə verilmiş tapşırıqların icrasını yerində yoxlayıb. Rayonun məktəblərində və uşaq bağçalarında istilik, qaz, elektrik, su məsələlərinin yüksək səviyyədə həlli ilə bağlı göstərilən diqqət və qayğıya görə kollektivlər ölkə Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Daşkəsən rayon icra hakimiyyətinin başçısı Ə.Abıyev rayonun polis şöbəsinin rəisi Azay Ağayev və SHXÇDX-nin rayon bölməsinin rəisi Aqşin Xançanovla birgə 1993-cü ildə Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olmuş hərbi qulluqçu Vəliyev Zülfü Yaqub oğlunun ailəsinə baş çəkib, şaxtalı hava ilə əlaqədar məişət şəraiti və ehtiyacları ilə maraqlanıb və maddi kömək göstərib. Rayon rəhbəri bildirib ki, Vətən uğrunda şəhid olanların həyatı gənclərə örnək olmalıdır: "Bütün Azərbaycan xalqı onların ruhu qarşısında baş əyir. Şəhidlərimiz millətimizin və tariximizin yaddaşında daim yaşayacaq və böyük sevgi ilə xatırlanacaqlar. Şəhid Zülfü Vəliyev düşmənlə vuruşaraq, torpaqlarımızı qoruyub və şəhid olub. Daşkəsəndə onu tanıyanlar və hərbi xidmət yoldaşları onu mərd və vətənpərvər bir oğul kimi xatırlayırlar". Şəhid anası Tahirə Vəliyeva torpaqlarımızın müdafiəsi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə dövlət tərəfindən daim göstərilən xüsusi diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib.

**R.KAMALQIZI**

## YAP Binəqədi rayon təşkilatının rəsmi internet saytının yeni dizayn və tərtibatda təqdimatı keçirilib

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının rəsmi "bineqediyap.org.az" internet saytının yeni dizayn və tərtibatda təqdimatına həsr olunmuş tədbir keçirilib. Tədbirdə saytla bağlı məlumat verən YAP Binəqədi rayon təşkilatının məsul əməkdaşı Kubra Əliyarlı bildirib ki, müasir dövrümüzdə informasiya mübarizəsinin getdiyini nəzərə alaraq, müasir dövrün tələblərinə uyğun olaraq, görülən işlərin və keçirilən tədbirlərin işıqlandırılması xüsusi əhəmiyyət daşıyır. Rayon təşkilatı media qurumlarının daha operativ məlumatlandırılması və rayon təşkilatının özünün təbliğatını daha intensiv qurması məqsədilə rəsmi internet saytının yaradılmasını qarşıya mühüm məqsəd kimi qoyaraq, 1 dekabr 2013-cü il tarixdə "bineqediyap.org.az" rəsmi internet saytının yaradılmasına nail olub.

Tədbirdə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov bildirib ki, rayon təşkilatı tərəfindən tarixi, əlamətdar günlərdə və müxtəlif mövzularda maarifləndirici silsilə tədbirlər, layihələr və görüşlər həyata keçirir: "Bu tədbirlərdə partiya üzvlərinin fəal iştirakı təmin edilir. Görülən işlərin cəmiyyətimizə çatdırılması, insanların müxtəlif mövzularda, əsasən ölkəmizdəki siyasi, iqtisadi, sosial və mədəni sahələrdə baş verən hadisələr barədə xəbərdar edilməsi, onların bu proseslərə qoşulmasını təmin etmək siyasi partiyanın mühüm fəaliyyət istiqamətlərindəndir. Bu baxımdan, YAP Binəqədi rayon təşkilatı öz üzərinə düşən məsuliyyətin tam və düzgün həyata keçirilməsi məqsədilə işini müasir tələblər səviyyəsində qurub. Belə bir şərait partiyanın müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından yararlanmaq zərurətini ortaya qoyub. Bu məqsədlə YAP Binəqədi rayon təşkilatı informasiya texnologiyalarının inkişafından və imkanlarından istifadə edərək, bir sıra təbliğat platformalarından səmərəli istifadə edir".





Millət vəkili Kamaləddin Qafarov tədbirdə çıxışı zamanı bildirib ki, dövlət qurumları, müxtəlif idarə, təşkilat, müəssisə və şirkətlərin öz xidmətləri və imkanları haqqında məlumatları yaymaq üçün saytlardan istifadə etməsi ən optimal və əlverişli imkanlardan biri hesab edilir: "Veb-saytlar konkret məzmunu olan informasiya platforması kimi həmin qurumu yüksək səviyyədə təmsil edir və təbliğatını təşkil edir. YAP Binəqədi rayon təşkilatının yeni saytının yaradılması da, məhz bu məqsədlərə xidmət edir".

**ZÜMRÜD BAYRAMOVA**

# "Xalq üçün"

## *YAP-ın bələdiyyə seçkilərində təşviqatı davam edir*

### XAÇMAZ

23 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası davam edir. Ölkənin hər yerində olduğu kimi, Xaçmazda da bu proses





uğurla davam edir. Partiya tərəfindən Xaçmaz rayonu bələdiyyələrinə irəli sürülmüş namizədlərlə rayonun Hülövlü və Susay kənd seçiciləri ilə görüş keçirilib. Görüşü YAP Xaçmaz rayon təşkilatının sədr müavini, rayon Seçki Qərargahının üzvü Abasyar Heydərov açaraq, bələdiyyə seçkilərinin ölkəmiz üçün əhəmiyyətindən danışıb, seçiciləri partiyamızın namizədlərinə səs verməyə çağırıb.

Görüşdə rayon seçki qərargahının üzvü Süraya Əmirova, seçicilərdən Pənah Əsgərov, Susay kəndi ərazi ilk partiya təşkilatının sədri, qərargah üzvü Amil Rəhimov və başqaları çıxış edərək ölkəmizin bu günki inkişafı və gələcək hədəfləri haqqında seçiciləri məlumatlandırıblar.

Tədbirdə bələdiyyə üzvlüyünə namizəd Mehriban Məmmədova və digərləri çıxış edərək bələdiyyə seçkilərində daha fəal iştirak edəcəklərini, partiyanın qələbəsini təmin etməyə çalışacaqlarını bildiriblər.

### BİLƏSUVAR

"Xalq üçün" devizi ilə təbliğat-təşviqat kampaniyasına uğurla başlayan YAP Biləsuvar rayon təşkilatının seçki qərargahı bələdiyyə seçkiləri ilə əlaqədar rayonun Dərvişli





kəndində seçicilərlə görüş keçirib. Görüşdə YAP Biləsuvar rayon təşkilatı Seçki Qərargahının üzvü Rəfael Zeynalov və rayon təşkilatının aparat rəhbəri Əjdər Niftiyev ölkədə həyata keçirilən irimiqyaslı layihələrin ölkə Prezidenti İlham Əliyevin adı ilə bağlı olduğunu, bütün bunların ölkə vətəndaşlarının sosial rifahının yaxşılaşmasına, dövlətimizin dünya səviyyəsində lider ölkəyə çevrilməsinə xidmət etdiyini bildiriblər. Çıxış edənlər vurğulayıblar ki, biləsuvarlı seçicilər bütün seçki prosesslərində çox böyük fəallıq göstərərək dövlətə və dövlətçiliyə sədaqətlərini Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməklə nümayiş etdirəcəklər.

Görüşdə çıxış edən Dərvişli kənd sakinləri Qədir Abasov, Kamal İsgəndərov, Səxavət Almazov və digərləri seçkilərdə fəal iştirak edəcəklərini qaliblər partiyası - Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləyəcəklərini söyləyiblər.

### DAŞKƏSƏN

YAP Mərkəzi Seçki Qərargahının Daşkəsən rayon şöbəsinin üzvləri rayonun Zinzahal və Çanaqçı kəndlərində YAP tərəfindən irəli sürülmüş namizədlərlə seçicilərin görüşünü keçirib.





Görüşdə seçki qərargahının və rayon təşkilatının sədri Meydanəli Yolçuyev çıxış edərək, Yeni Azərbaycan Partiyasının müasir Azərbaycan dövlətinin qurulmasında, xalqın rifahının ildən-ilə yüksəlməsində əvəzolunmaz xidmətlərindən danışıb: "Ümumxalq dəstəyi və etimadı qazanan hakim partiya 23 dekabr bələdiyyə seçkilərinə "Xalq üçün" devizi ilə gedir. İnanırıq ki, həmişə olduğu kimi, bu seçkilərdə də daşkəsənlilər qaliblər partiyası olan Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən namizədləri dəstəkləyəcək və növbəti möhtəşəm uğurunu qazanacaq.

### TƏRTƏR

YAP Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsi bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP tərəfindən irəli sürülmüş namizədlərin seçicilərlə Seydimli və Əskipara kəndində görüşü keçirilib. Görüşlərdə YAP Mərkəzi Seçki Qərargahı Tərtər rayon şöbəsinin və rayon təşkilatının sədri Ramiz Şabanov ölkəmizdə 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkilərinin sayca beşinci olduğunu bildirib: "Artıq yerli özünüidarəetmə orqanları olan bələdiyyələr öz hüquqi əsaslarına tam yiyələnmişdir. Yeni Azərbaycan Partiyası rayonda seçiləcək 25 bələdiyyə üzrə 229 nəfər partiya üzvünün namizədliyini irəli sürmüş və bu gün keçirilən görüşdə namizədlərimizin öz seçiciləri ilə təması ona xidmət edir ki, seçkilərdə YAP namizədlərinə seçicilər tərəfindən daha çox etimad göstərilməsinə nail olaq".

R.Şabanov onu da vurğulayıb ki, son 5 ildə istər ölkə-







mizdə, istərsə də rayonumuzda həyatımızın bütün sahələrində köklü müsbət dəyişikliklər əldə olunub, insanlarımız daha yaxşı yaşayır, əhaliyə göstərilən tibbi xidmətin, təhsilin keyfiyyətcə yeni mərhələyə çatdırılmasına nail olunduğunu, minimum əmək haqlarının, pensiyalar, sosial müavinətlərin artırıldığını, bununla da, vətəndaş məmnunluğunun təmin olunmasında inqilabi dəyişikliklərin baş verdiyini qeyd edib.

Görüşdə rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvlərindən Emin Qurbanov, Sərxan Budaqov, Seydimli bələdiyyəsinə namizədlərdən Mədinə İmanova, Aybəniz Cəfərova, Süreyya Hüseynova, Əruz Əzimzadə, kənd sakinlərindən Sayəddin Musayev, Ələddin Süleymanov, Əskipara kənd sakinlərindən Faxrəddin Babışov, Gülzar Ağayeva və başqaları çıxış edərək, bələdiyyə seçkilərində ölkəmizin hakim partiyası olan YAP-ın namizədlərinin qalib olmaları üçün həyata keçirilməli olan tədbirlərdən danışıblar.

### MASALLI

23 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasına yüksək ab-hava ilə






başlayan Yeni Azərbaycan Partiyasının Masallı rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir.

**Ardı Səh. 11**

# "Xalq üçün"

## YAP-ın bələdiyyə seçkilərində təşviqatı davam edir

Əvvəli Səh. 10

Kampaniya çərçivəsində seçicilərlə növbəti görüş Həsənli kəndində keçirilib.

Görüşdə çıxış edən YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev Yeni Azərbaycan Partiyasının müasir Azərbaycan dövlətinin qurulmasında, xalqın rifahının ildən-ilə yüksəlməsində və ümummilli inkişafımızda əvəzolunmaz xidmətlərindən danışıb. Bildirib ki, ümumxalq dəstəyi və etimadı qazanan partiyamız 23 dekabr bələdiyyə seçkilərinə "Xalq üçün" devizi ilə gedir: "İnanırıq ki, həmişə olduğu kimi, bu bələdiyyə seçkilərində də xalqımız YAP tərəfindən irəli sürülən namizədlərini dəstəkləyəcək və partiyamız növbəti möhtəşəm uğurunu qazanacaq".

S.Əliyev seçiciləri 23 dekabr bələdiyyə seçkilərində fəal iştirak etməyə, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Tədbirdə rayon təşkilatının Seçki Qərargahının üzvləri Qardaş Fətullayev, Hikmət Xəlilov, kənd ağsaqqallarından Zəbi Hüseynov və başqaları çıxış edərək, təbliğat kampaniyasının yüksək səviyyədə keçirilməsi yönündə fikirlərini bildiriblər, Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlərə seçkilərdə uğurlar arzulayıblar.

### ASTARA

Respublikamızın bütün rayon və şəhərlərində olduğu kimi, Astara rayonunda da 23 dekabr 2019-cu ildə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar YAP Astara rayon təşkilatının Seçki Qərargahı rayonun Siyaku kəndində seçicilərlə






görüş keçirilib.

Tədbiri giriş sözü ilə YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov açaraq, ötən 5 il ərzində YAP-ın bələdiyyələrdə təmsil olunan üzvlərinin əhalinin sosial məsələlərinin həllində yaxından iştirak etdiyini bildirib: "Astara rayonunda 15 bələdiyyə fəaliyyət göstərir. YAP bu bələdiyyələr üzrə müvafiq yerlərin hamısına öz namizədlərini irəli sürmüşdür. İnanırıq ki, 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərində YAP növbəti möhtəşəm qələbəsini qazanacaq. Tədbirdə çıxış edən rayon ağsaqqaları Gülağa Rzayev, Ələsgər Əliyev seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırdılar. Kənd sakinləri Fərrux Muradov, Əhmədşah Quliyev, Arif İskəndərov, Samir Kərimov və digərləri çıxış edərək bələdiyyə seçkilərində fəal iştirak edəcəklərinə, layiqli namizədə səs verəcəklərini bildiriblər.

### BALAKƏN

Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatı 23 dekabr 2019-cu ilə təyin olunmuş bələdiyyə seçkiləri ilə əlaqədar yerlərdə təbliğat kampaniyasını davam etdirir. Bala-





kən rayon seçki qərargahının üzvləri növbəti görüşü rayonun Qaysa kənd bələdiyyəsi üzvlüyünə namizədlərlə birlikdə keçirib. Görüşü giriş sözü ilə rayon seçki qərargahının üzvü Ömər Osmanov açaraq, Azərbaycanda əldə olunan uğurlardan, Azərbaycan xalqının sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində yürüdülən siyasətin müsbət nəticələrindən danışıb.

Qərargahının YAP Balakən rayon təşkilatının üzvlərindən, kənd ağsaqqalları adından Ramazan Xutrayev də çıxışında 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərində hamılıqla məntəqələrə gedərək YAP-ın irəli sürdüyü namizədlərə səs verməyə çağırıb.

Kənd bələdiyyəsi üzvlüyünə namizəd Rəfail Oynağanov seçicilər qarşısında çıxış edərək öz platformalarını seçicilərə bəyan ediblər.

Tədbirdə qərargah üzvü Hacıömər Nuruyev Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən namizədlərə uğurlar arzulayaraq, öz təkliflərini verib.

### AĞDAŞ

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsi rayonun Yuxarı Qəsil və Qulbəndə kəndlərində seçicilərlə görüş keçirib. Görüşlərdə YAP Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsinin üzvləri İsa






Eminov və Fuad Nəbiyev seçicilər qarşısında çıxış edərək, ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu sosial və iqtisadi islahatlardan söz açıblar. Qeyd edilib ki, Ümummilli Liderimiz Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində, dövlətin idarəetmə sistemi daha da təkmilləşdirilmiş, bununla yanaşı, yerli özünüidarəetmənin səmərəliliyinin artırılması, bələdiyyələrin səlahiyyət və fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilmişdir. Azərbaycan Respublikasında yerli özünüidarəetmə orqanlarının səmərəli fəaliyyəti üçün dövlət tərəfindən sistemli tədbirlər həyata keçirilmiş, mükəmməl qanunvericilik bazası yaradılmış, bələdiyyə institutu tam formalaşmışdır.

Görüşlərdə çıxış edən Yuxarı Qəsil kənd sakini Mabud Şirinov, Qulbəndə kənd sakinləri Almas Salehova və Kamil Mustafayev bildirdilər ki, Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan ölkəmizdə keçirilən bütün seçkilərdə qələbə qazanıb. 23 dekabrda da YAP tərəfindən irəli sürülmüş namizədlər seçicilər tərəfindən dəstəklənəcək və kənd sakinləri onlara səs verəcəklər.

### İSMAYILLI

Dünən YAP İsmayıllı rayon təşkilatının qərargahında 23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova qeyd edib ki, əsası Ulu Öndər





Heydər Əliyev tərəfindən qoyulmuş və ölkəmizin yüksək inkişafına hesablanmış uğurlu sosial-iqtisadi siyasət bu gün məhz Yeni Azərcaycan Partiyasının Sədri, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Dövlət başçısının müəyyən etdiyi islahatlar kursunun həm miqyası, həm də keyfiyyət baxımından davamlı olması iqtisadiyyatın hər bir strukturunda müşayiət edilməklə yanaşı, ən yeni idarəetmə texnologiyalarının tədbiqi ilə çox böyük nailiyyətlərin əldə olunmnasını şərtləndirib. Daha sonra rayon təşkilatı sədri xalqın sosial-ictimai həyatında bələdiyyələrin rolundan danışıb. O, 23 dekabr 2019-cu ildə keçiriləcək bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının İsmayıllı rayon təşkilatının qarşısında duran vəzifələri açıqlayıb. Yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin keçdiyi inkişaf yolu, yarandığı 20 il ərzində, ölkənin sosial-iqtisadi və ictimai-mədəni həyatındakı rolu barədə ətraflı danışıb. Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində YAP rayon təşkilatının da layiqli namizədlərlə iştirak edəcəyi bildirilib.

Ardı Səh. 12

# “Xalq üçün”

## *YAP-ın bələdiyyə seçkilərində təşviqatı davam edir*

Əvvəli Səh. 11

Görüşdə çıxış edən bələdiyyə üzvlüyünə namizədlər Pərviz Ağayev, Vidadi Zərbiyev, Zamin Alahverdiyeva, Gülnar Mustafayeva, Minazər İsgəndərova və başqaları bildiriblər ki, məqsədləri bələdiyyələrin ərazisində əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin daha da yüksəltmək, yerli əhəmiyyətli problemlərin həllinə dəstək olmaq, ölkəmizdə həyata keçirilən islahatların regionlarda uğur qazanmasına töhfə verməkdir.

Tədbirin sonunda YAP İsmayıllı rayon təşkilatı təbliğat qrupunun üzvləri çıxış edərək, İsmayıllı bələdiyyəsi üzrə namizədlərə 23 dekabr bələdiyyə seçkilərində fəal iştirak etməyə, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırdılar.

### ZAQATALA

23 dekabr tarixində keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Zaqatala rayon təşkilatı təbliğat-təşviqat kamaniyasını uğurla davam etdirir. Dünən Lahic, Sabunçu, Qandax və Faldar kənd secicilələri ilə görüş keçirilib. Görüşlərdə 500-ə yaxın seçici iştirak edib.

Görüşlərdə çıxış edən YAP Zaqatala təşkilatının sədri Habil Qurbanov bələdiyyə seçkiləri ilə bağlı geniş məlumat verib. Yeni Azərbaycan Partiyasının növbəti bələdiyyə seçkilərinə “Xalq üçün” devizi altında çox ciddi proqramla getdiyini vurğulayan H.Qurbanov görüş iştirakçılarını ötən beş il ərzində, görülmüş işlərlə tanış edib. O, seçiciləri bələdiy-





yə seçkilərində fəallıq göstərməyə və YAP-ın namizədlərinə səs verməyə çağırıb.

YAP Mərkəzi Seçki Qərargahı Zaqatala rayon şöbəsinin üzvləri Namidə Süleymanova və Gülnigar Məmmədova çıxışlarında qeyd ediblər ki, YAP-ın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində, ölkəmizdə yerli özünüidarə orqanları olan bələdiyyələrin fəaliyyətinin genişlənməsi üçün münbit şərait yaranıb. Ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə gələcəyə hesablanmış əhatəli dövlət proqramlarının, genişmiqyaslı sosial və infrastruktur layihələrinin həyata keçirilməsi ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş, demokratik proseslərə güclü təkan vermiş, Onun beynəlxalq aləmdə nüfuzunu gücləndirmişdir. Bildirilib ki, artıq 20 ildir ki, fəaliyyət göstərir, Azərbaycanda aparılan köklü islahatlar və yaşanan dinamik tərəqqi dövründə özünün inkişaf yolunu keçir, vətəndaşların maraq və mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində iştirak edir, onların etibarını qazanmağa, cəmiyyətimizdə özünəməxsus yer tutmağa səy göstərir, fəallıqlarını artırır, öz səlahiyyətləri çərçivəsində konkret işlər görürlər.

Sonda çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasının layiqli namizədlərinə səs verəcəklərini bildiriblər.

### QUBA

23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar, Quba rayonunda Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, “Xalq üçün” devizi ilə təbliğat-təşviqat kampaniyası uğurla davam etdirilir. Dünən YAP Quba





rayon təşkilatı bu kampaniya çərçivəsində rayonun Qəçrəş və Zərdabi inzibati-ərazi dairələri üzrə seçicilərlə görüş keçirilib. Görüşdə 250 nəfərə yaxın seçici iştirak edib.

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının Bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədri Yusif Abidov bələdiyyə seçkilərindən, bu seçkilərlə əlaqədar indiyə qədər görülmüş işlərdən, dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışıb.

Tədbirdə çıxış edən Zərdabi qəsəbəsində yerləşən Kənd Təsərrüfatı Nazirliyinin nəzdində fəaliyyət göstərən Meyvəçilik- Çayçılıq Elmi-Tədqiqat İnstitutunun direktor müavini Vahid Əliyev, Qəçrəş kənd sakinləri Babayev Fikrət, Xanməmmədov Həzrətqulu qeyd ediblər ki, 23 dekabr bələdiyyə seçkilərində kənd seçiciləri yüksək fəallıqla iştirak edəcəklər. Yeni Azərbaycan Partiyasının layiqli namizədlərini dəstəkləyəcəklər.

### ZƏRDAB

23 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasına yüksək ab-hava ilə





başlayan Yeni Azərbaycan Partiyasının Zərdab rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Dünən rayonun Hüseynxanlı və Yarməmmədbağı kəndlərində Hüseynxanlı, Xanməmmədli, Yarməmmədbağı və Lələağacı kəndlərindən olan seçicilərlə görüş keçirilib.

Görüşdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi, YAP-ın Mərkəzi Seçki Qərargahının Zərdab rayon təşkilatının üzvləri, Səbuhi Kərimov, Rəmzi Şirinov, Şahnaz Mustafayeva, Nailə Əliyeva, Həsən Abulov iştirak ediblər. Görüşdə çıxış edənlər Yeni Azərbaycan Partiyasının müasir Azərbaycan dövlətinin qurulmasında, xalqın rifahının ildən-ilə yüksəlməsində və hərtərəfli inkişafımızda əvəzolunmaz xidmətlərindən danışıblar. Bildiriblər ki, ümumxalq dəstəyi və etimadı qazanan hakim partiya 23 dekabr bələdiyyə seçkilərinə “Xalq üçün” devizi ilə gedir. İnanırıq ki, həmişə olduğu kimi, bu bələdiyyə seçkilərində də xalqımız YAP tərəfindən irəli sürülən namizədləri dəstəkləyəcək və partiyamız növbəti möhtəşəm uğurunu qazanacaq.

***ZÜMRÜD BAYRAMOVA***
***NƏZAKƏT***
***RƏFİQƏ HÜSEYNOVA***

## Mozambikdə fil ovuna görə 11 brakonyer 176 il həbs cəzası aldı



Mozambik məhkəməsi Horonqos milli parkında qanunsuz fil ovladıqlarına görə 11 nəfəri 176 il həbs cəzasına məhkum edib. Cənubi Afrikanın SABC radiostansiyası xəbər verir ki, hakim Martino Çeqere bu hökmün dövlətin brokonyerləri ən sərt şəkildə cəzalandırmaq qətiyyətinə dair siqnal olduğunu bildirib.

Mozambikdə 16 il davam edən vətəndaş müharibəsi (1976-1992) zamanı brakonyerlər heç bir məhdudiyyət olmadan fəaliyyət göstərirdi. Bu dövr ərzində Horonqos milli parkında yaşayan fillərin 90 faizi məhv edilmişdi. Fil dişlərinin satışından əldə edilən gəlirin bir hissəsi hökumət qüvvələrinə qarşı döyüşən üsyançıların dəstəklənməsinə sərf olunurdu. Horonqos milli parkı 1920-ci ildə Mozambikdə hakim olan Portuqaliya administrasiyası tərəfindən təşkil olunub. Hazırda ölkənin mərkəzində yerləşən 4 min kvadratkilometrlik parkda 100 mindən çox iri heyvan yaşayır. Onların arasında 560 fil, 580 su ayğırı, 44 zebr, mindən çox camış və 2 min timsah var.

## On səkkiz vətəndaşa qarşı dələduzluq edən şəxslər yaxalanıblar

On səkkiz nəfərə qarşı dələduzluq edən dörd nəfər tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 18 vətəndaşa qarşı dələduzluq etməkdə şübhəli bilinənlər - Bakı şəhər sakinləri M.Şərifov, əvvəllər məhkum olunmuş M.Abdullayev, Şəki rayon sakini V.Abdullayev və Gəncə şəhər sakini, əvvəllər də dələduzluğa görə məhkum olunmuş Ş.Musayev Kəpəz Rayon Polis İdarəsi və Metropolitendə Polis Şöbəsi əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Faktla bağlı araşdırmalar davam etdirilir.

# AXC-Müsavat iqtidarı müstəqillik tariximizə qara ləkədir

*Prezident İlham Əliyevin Sumqayıtda və BDU-nun yubileyində etdiyi çıxışlar haqda bəzi qeydlər*

***Deyir haqq nazilər, amma üzülməz. Bəli, bu gün Azərbaycanın tarixinə qara ləkə kimi həkk olunan AXC-Müsavat cütlüyünün bir illik hakimiyyəti və müxalifətdə olduqları 26 illik ərzində törətdikləri əməllər və etdikləri cinayətlər unudulmur.***

İnsanlara öz fikirlərini ifadə etmək azadlığı verilməsi, sərbəst toplaşmaq üçün şərait yaradılması demokratik inkişafın təzahürlərindəndir. Bu cütlük bir dəfə - 1992-ci ildə ölkədə yaranmış hakimiyyətsizlikdən istifadə edərək, xarici himayədarlarının köməyi ilə, özü də silah gücünə hakimiyyəti ələ keçirməklə, bu yolu "demokratik" adlandıraraq, bu gün də xəyallarla yaşayaraq, "bəlkə də qaytardılar" ab-havasındadırlar. Lakin anlamırlar ki, xalq onları 2003-cü ildən arxivin zibilliklərinə tulladı. AXC-Müsavat hakimiyyəti dövründə özbaşınalıq, korrupsiya, talançılıq və rüşvətxorluq ölkəni bürümüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevin Sumqayıt və Bakı Dövlət Universitetinin 100 illik yubileyindəki çıxışlarında fikirləri, ritorikası, səsləndirdiyi qətiyyətli çağırışları açıq-aydın şəkildə bir daha AXC-Müsavat hakimiyyətinin xəyanətkar simasını və anti-demokratik mahiyyətini ifşa etdi.

### "Bugünkü Azərbaycan Heydər Əliyevin 1969-cu ildən başlanan və ardıcıl şəkildə həyata keçirdiyi məqsədyönlü fəaliyyətinin nəticəsidir"

Ölkə Prezidenti İlham Əliyev bildirdi ki, məhz Ulu Öndər Heydər Əliyevin yaratdığı kadr siyasətinə uyğun olaraq, müstəqil Azərbaycanımızın uğurlu inkişafını təmin edir. Keçən əlli ildə Azərbaycanın geridə qalmış aqrar respublikadan inkişaf etmiş sənaye və kənd təsərrüfatı ölkəsinə çevrilməsi, ictimai-siyasi və mədəni həyatın bütün sahələrində hərtərəfli inkişaf etməsi, ölkənin milli maraqlarının təmin edilməsi, SSRİ-nin aparıcı respublikalardan, hazırda isə, regionun aparıcı dövlətlərindən birinə çevrilməsi, məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Heydər Əliyevin respublikamızdakı ilk hakimiyyəti illərində Azərbaycanda ali məktəblərin və ali məktəb məzunlarının ümuməhali sayına nisbəti kəskin şəkildə artaraq, inkişaf etmiş Qərb dövlətlərinin göstəricilərinə yaxınlaşmışdı. Dövlət başçısı Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə - 13 il ərzində, Azərbaycan hər il "Qırmızı keçici bayraq" aldığını bildirərək, vurğuladı ki, O, Azərbaycanı böyük inkişafa qovuşduraraq ən qabaqcıl yerlərə qədər ucaltdı.

### "Əgər Heydər Əliyev gəlməsəydi, həm Azərbaycan dağılacaqdı, həm də o antimilli AXC-Müsavat dəstəsi öz cəzasını alacaqdı"

AXC-Müsavatın bir illik hakimiyyəti dövründə Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qaldı. Prezident İlham Əliyev çıxışında AXC-Müsavat hakimiyyətinin xəyanətkar simasını faktlarla açıqladı: "Xalq Cəbhəsi vətəndaş müharibəsinə start vermiş və Gəncə şəhərini bombalamağa başlamışdı... Göründə ki, özlərini qoruya bilmirlər, Heydər Əliyevə müraciət etdilər ki, gəl, bizi xilas elə. Üç dəfə təyyarə göndərmişdilər ki, bizi xilas elə, çünki artıq gəlirdilər bunları öldürməyə, yaxud da ki, yıxmağa. Qaçıb gizləndilər, bəziləri guya vəzifələrini dondurdular. Əgər Heydər Əliyev gəlməsəydi, həm Azərbaycan dağılacaqdı, həm də, o antimilli AXC-Müsavat dəstəsi öz cəzasını alacaqdı".

Məşhur bir deyimdə vurğulandığı kimi, "hər şeyi kadrlar həll edir". Prezident İlham Əliyev çıxışlarında haqlı olaraq, məhz kadr məsələsinə toxunaraq xatırlatdı ki, AXC-Müsavat cütlüyünün rəhbərliyində təmsil olunanların əksəriyyəti kiçik elmi işçilər olub: "Meydan hərəkatının nəticəsi olaraq, ölkənin ən ali postunda əyləşmiş Əbülfəz Elçibəy ona qədər heç bir müəssisəyə rəhbərlik etməmişdi, heç bir vəzifə tutmamışdı, Əlyazmalar İnstitutunda adi bir elmi işçi "cavanları başıma yığıb təzədən inqilab edəcəm", "tankın qabağında dayanan oğlanlar pulun qabağında dayana bilmədi", "qanunları pozmaq olmaz, amma yan keçmək olar", sonrakı müsahibələrində "o dövrdəki prezidentlik, prezidentlik deyildi, amma mən yenidən prezident olacam", "getməyib nə eməliyidim, Surət məni öldüməliyidi?" kimi işlətdiyi fikirlər, doğrudan da, primitiv olmaqla yanaşı, həm də zəif, aciz, səriştəsiz olduğunu göstərirdi. Sözügedən görüşdə dövlət başçısı İlham Əliyevin dediyi kimi, "Azərbaycanın Heydər Əliyevə qədərki bütün rəhbərləri fərarilik etmiş, xalqı və ölkəni ağır vəziyyətdə qoyaraq qaçmışlar". Halbuki "liderin vəzifəsi dövləti qorumaq, xalqla bir yerdə olmaqdır". Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O, hər birimiz üçün nümunədir".




Prezident İlham Əliyev çıxış zamanı, həmçinin, AXC-Müsavatın - müstəqillik tariximizin qara ləkələri olan digər ünsürlər haqqında mövcud olan faktları da xatırladıb: "Pənah Hüseynin AXC hakimiyyəti zamanı baş nazir kimi ilk açıqlamalarından biri iqtisadi bloka dair bütün məsələlərin Nazirlər Kabinetində həll edilməli olduğu ilə bağlı idi. Elçibəyi "Maks Veberi mütaliə etməsi" ovsunlamış Pənah Hüseyn, görəsən, o zaman hiperinflyasiya vəziyyətinə düşən ölkəni və onun iqtisadiyyatını idarə etmək üçün hansısa proqrama, yaxud da peşəkar səriştəyə, biliklərə malik idimi? Cavab Prezidentin çıxışında göstərilib: "Baş nazir, - o da elmi işçi idi. O da heç bir dissertasiya müdafiə edə bilməmişdi. Hamı yaxşı bilir, indi bu, sirr deyil, mövsümi ticarətlə məşğul olan adam Baş nazir təyin edilmişdi. Məhz onun dövründə "otkat" sözü bizim lüğətimizə daxil edildi". Bu ara vaxtilə 90-cı illərin ikinci yarısında müxtəlif mətbu orqanların iranlı biznesmenlər, qızıl sikkələr, xalçalar, tramvay xətləri haqda araşdırmalarını yada salmaq olardı. O zaman dövlətin ikinci siması İsa Qəmbəri AXC hakimiyyətinin ən intellektual fiquru sayırdılar. Bu intellektual fiqur düz 11 il aspiranturada təhsil almış, bir dissertasiyanı belə müdafiə edə bilməmişdi. Parlamentin səlahiyyətləri qanunsuz olaraq, "Mili Şura" tərəfindən mənimsənilmişdi. Spiker, özü haqda çoxbaşlı "hələ ki, ikinci" başlıqlı yazılar sifariş etdirən İsa Qəmbər isə gah dramatik, gah tragikomik səhnələşdirmələrin nümayiş olunduğu teatrı andıran parlament iclaslarında müəyyən dövrdən sonra hakimiyyətdə təmsil olunanları belə müxtəlif bəhanələrlə birinci şəxsə qarşı yönəldir, "özünüz əlaqə saxlayın, mən vasitəçi olmaqdan bezmişəm" kimi mesajlar verirdi. Bu gün sosial medianın imkanları hesabına özünü "ana müxalifət" elan etmiş Əli Kərimli AXC-Müsavat hakimiyyətində dövlət katibi kimi mühüm postda təmsil olunurdu. Sosial media istifadəçiləri dövlət katibi olduğu zaman ona həvalə olunmuş mühüm dövlət əhəmiyyətli bir tapşırığı- dövlət sirrini necə faş etməsini artıq özünə xatırladıblar. Vaxtilə eyni düşərgədə olduqları İsa Qəmbərə yaxın media quruluşlarında onun hansısa tenderdə "lazımi" şirkəti qalib elan etmək üçün şəxsən maşın sürməsindən yazmışdılar, iddia edilirdi ki, belə sürücülük dövlət katibinə kifayət qədər- beşrəqəmli məbləğdə pul qazanmaq imkanı veribmiş, özü də hiperinflyasiyaya məruz qalmış manatla deyil, xarici valyuta ilə. Beləcə, mebel zavodunun keçmiş komsomol fəalı qısa müddətdə ölkənin ən zəngin şəxslərindən birinə çevrilə bilmişdi. Bu zənginliyin üzərinə illərlə müxtəlif fondların vasitəsilə alınıb silinən qrantlar da, "Azadlıq" qəzetinin leqal və illeqal gəlirləri də daxil idi. Bu gəlirlər ona sonrakı dövrdə media maqnatına çevrilmək, müxtəlif nəşrlərdə qurduğu jurnalist şəbəkəsi vasitəsilə öz sədri Elçibəyi hakimiyyətdən və partiya sədrliyindən devirmək istəyi yaratmışdı. Deyilənə görə, sonuncunun ölüm xəbəri Bakıya daxil olan gün Əli Kərimli onun haqqında inanılmaz dərəcədə nifrətlə yoğrulmuş yazılar yazdırmaq şansını belə buraxmamışdı".

Prezident İlham Əliyev Sumqayıt hadisələri ilə bağlı çıxışı ilə həm Sumqayıt hadisələrinin, həm də erməni xislətinin əsl mahiyyətini açıqladı. Azərbaycan Prezidenti haqlı olaraq Sumqayıt hadisələrini erməni millətçilərinin təxribatı adlandırdı. "Artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir" deməklə, bu hadisələri yenidən olduğu kimi ictimaiyyətə xatırlatdı.

Bax, budur AXC-Müsavat cütlüyünün qara əməlləri.

### "Baxın, özünü demokrat adlandıran dairələr, hakimiyyət imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis konfransı Bakı şəhərində keçirilsin"

Dövlət başçısı iyirmi beş il əvvəl Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilib:

"Bu, böyük tarixi hadisə idi. Ondan təqribən bir ay əvvəl bir qrup vətənpərvər insan - məşhur "91-lər" Heydər Əliyevə müraciət ünvanlamışdılar. Ulu Öndər müraciətə müsbət cavab verərək, yeni yaradılacaq partiyaya rəhbərlik etməyə hazır olduğunu bildirmişdir və partiyanın təsis konfransının keçirilməsi haqqında qərar qəbul edilmişdir. Təbii ki, təsis konfransı Bakıda keçirilməli idi. Ancaq o vaxt Azərbaycanda hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş AXC-Müsavat hakimiyyəti buna imkan vermədi. Baxın, özünü demokrat adlandıran dairələr, hakimiyyət imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis konfransı Bakı şəhərində keçirilsin. Belə olan halda 500-dən çox nümayəndə, bütün bölgələri təmsil edən vətəndaşlar Naxçıvana gəldilər və Ulu Öndərin rəhbərliyi ilə partiyamızın təsis konfransı keçirildi.

Dövlət başçısı əlavə edib ki, 1990-cı illərin əvvəllərində - xalqımız üçün ən ağır dövrdə yenə də Heydər Əliyev öz liderlik keyfiyyətlərini göstərmiş, böyük cəsarət, vətənpərvərlik göstərmiş və qanlı 20 Yanvar hadisələrini Sovet İttifaqının mərkəzində, Moskva şəhərində pisləyib: "Mən o günü yaxşı xatırlayıram. Mən fəxr edirəm ki, o gün atamla birlikdə idim və Heydər Əliyevin o qətiyyətli çıxışı, Vətəninə, xalqına olan bağlılığı bütün Azərbaycan xalqına, bir daha göstərdi ki, O, xalqa bağlı olan böyük bir Liderdir. Ondan sonra Naxçıvanda işləyərkən müstəqilliyə gedən yolu açdı. Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını dövlət bayrağı elan etmişdir və atılmış digər addımlar Ona xalqın məhəbbətini daha da artırmışdır. Bununla bərabər, o vaxt Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat cütlüyü xalqın inamını tamamilə itirmişdi. Onların antimilli siyasəti xalqda böyük hiddət doğururdu. Bacarıqsızlıq, qeyri-peşəkarlıq nəticəsində, ölkə demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkəmizi xaos, anarxiya bürümüşdü, qeyri-qanuni silahlı birləşmələr küçələrdə əli silahlı gəzirdilər, insanları incidirdilər. O illərdə ölkəmizi kütləvi rüşvətxorluq bürümüşdü. Torpaqlarımızın işğal altına düşməsi, iqtisadi böhran, sənaye böhranı, hərbi böhran, demək olar ki, ölkəmizin gələcək müstəqil həyatına böyük təhlükə yaradırdı. Belə olan halda, əlbəttə ki, xalq öz ümidini Heydər Əliyevə bağlamışdı. Ona görə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi. Partiya yaradılandan sonra bütün cəmiyyətimiz də böyük dəstəyə malik oldu".

Bəli, Prezident tamamilə haqlıdır: Azərbaycan xalqı satqın dəstələri, xalqı darda qoyub qaçanları deyil, ölkəmizi işıqlı gələcəyə aparan, müstəqilliyimizi möhkəmləndirən və daha böyük hədəflərə doğru inamla irəliləyənləri dəstəkləyir. Bu ləkəli keçmişi təmizləmək və yaddaşdan silmək mümkünsüzdür.

Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi: "Tarix unudulmur və yaxın tariximizin canlı şahidi olan insanlar hələ həyatdadırlar".

**RƏFİQƏ KAMALQIZI**

TƏRS BAXIŞ

# Arif Hacılı avtoritar və saxtakar "liderdir"

## Onlarla müsavatçı, məhz bu cür düşünür

***Müsavat partiyasının növbəti məlum və qalmaqallı qurultayından sonra partiya daxilində cərəyan edən qarşıdurmalar və ziddiyyətlər hələ də səngimir. Maraqlı məqamlardan biri də budur ki, başqan Arif Hacılı ona qarşı çıxan istənilən müsavatçını partiyadan uzaqlaşdırmaqla, işini bitmiş hesab edir. Ancaq bu, vəziyyətin daha da gərginləşməsinə səbəb olur.***

O cümlədən, müsavatdaxili rəydə belə bir fikir formalaşmağa başlayıb ki, Hacılı hər iki qurultayda qəsb etdiyi başqanlıq postunu bütün variantlarla, hətta ən rəzil üsullar vasitəsi ilə əlində saxlamağa çalışaraq, avtoritar üsullardan istifadə etməkdən çəkinmir. Görünür, bu baxımdan, səsini ucaldanların partiyadan qovulmalarını görən bəzi müsavatçılar uzun illər partiyaya göstərdikləri xidmətlərini itirməməkdən ötrü, hələ ki, "susmaq qızıldır" prinsipindən istifadə edirlər.

### Partiyadan çıxarılanlar öz mübarizələrini daha da aktivləşdiriblər

Məsələn, bəzi müsavatçı gənclərin təşkilat sıralarından çıxarılması Hacılı avtoritarçılığının növbəti bariz nümunəsi kimi qiymətləndirilə bilər. Əslində, bu hal illərdir davam edir. Hələ bir müddət əvvəl Şamil Beydullayev adlı müsavatçı partiya başqanı A.Hacılını sosial şəbəkədə kəskin şəkildə tənqid edərək, onun atdığı addımlarını ərəb diktatorlarının addımları ilə müqayisə etmişdi. O, "facebook" səhifəsində A.Hacılının şəklini ərəb diktatorlarının şəkilləri ilə montaj edib və bunu paylaşaraq, öz etirazını bildirmişdi və müsavatçı gəncin bu hərəkətindən sonra başqan dərhal onu partiyadan çıxarılması barədə qərarını vermişdi. Ancaq Ş.Beydullayev A.Hacılının məlum qərarından sonra öz mübarizəsini daha da aktivləşdirdi. Lakin gözlənildiyi kimi, təhdidlər və təhqirlər ara vermədi.



### Şamil Beydullayevin üç il əvvəlki iddiası bu gün də qüvvədədir - Arif Hacılı saxta partiya biletlərini sataraq Avropaya mühacir göndərir

Əlbəttə, buna demokratik idarəçilik demək olmaz. Beydullayevin fikrincə, bu, birbaşa repressiv addımlar kimi qiymətləndirilməlidir: "O, tək mənə qarşı yox, bir çox partiya üzvlərinə, ən çox da gənclərə qarşı repressiyya siyasəti yürüdür. A.Hacılının yürütdüyü siyasət müsavatçılıq prinsiplərinə və əqidəsinə ziddir. Onun apardığı siyasət Rəsulzadənin ruhunu incidir. Əgər A.Hacılı "facebook"da onu tənqid edən insanlara qarşı bu qədər dözümsüz yanaşırsa və onu tənqid edən hər kəsi partiyadan çıxartdırırsa, bu, onu göstərir ki, hökumətin apardığı siyasəti tənqid etməsinin əhəmiyyəti yoxdur".

Nəticədə, partiyadan daha öncə və sonra çıxarılanlarla Beydullayevin arasında elə bir ciddi fərq qalmır. Yəni onların hər biri qovulduqdan sonra Hacılını və onun partiyadaxili klanını mövcud ittiham atəşinə tuturlar. Bu baxımdan, partiyadan çıxarılanların ona dəstək verəcəklərini hesab edən sabiq müsavatçı gənc öz fikirlərini daha kəskin formada ictimailəşdirir. Məsələn, o, daha sonra qeyd edir ki, bəzən "facebook"da yazdığı yazılara görə, kimlərsə təzyiqə məruz qalır və s.: "A.Hacılı başqan seçildikdən bu günə kimi partiyada dağıdıcılıq siyasəti yürüdür. Keçirilən mitinqlərə 200-300 nəfəri güclə toplayırlar, bu da, A.Hacılının Müsavatı zəifləməsini göstərir. Arif Hacılı Müsavatı ancaq öz maraqlarına xidmət elətdirir. Onun gördüyü işlər yalnız saxta bəyanat verməmək, partiya bileti sataraq, Avropaya saxta yollarla mühacir göndərmək və partiyanı şəxsi biznesi kimi istifadə etməkdir. Mənim partiyadan çıxarılmağım tam qanunsuzdur. Partiyanı qanuni, qeyri-demokratik yollarla idarə edənlər elə bilirlər ki, bu qısaqcılıq siyasəti onlara uğur gətirir. Amma xalq bu siyasəti görür və artıq inamı qalmayıb. Xalq güvənmirsə, onlar bir gün də siyasətdə qalmamalıdırlar".

### İrəli sürülən suçlamaların əksər çoxluğu Hacılının Müsavatı qeyri-qanuni biznes məkanına çevirməsidir

Göründüyü kimi, A.Hacılı yalnız avtoritar, repressiv və diktaturaçılıqda ittiham edilmir. Hətta bu gün onun və ətrafının saxta yollarla partbilet satışı, saxta arayışlar verib mühacir biznesi qurmasının ifşasının illərdir ki, davam etməsi sübutunu açıq-aşkar göstərməkdədir. Yəni irəli sürülən suçlamaların əksər çoxluğu Hacılının Müsavatı qeyri-qanuni biznes məkanına çevirməsidir. Təbii ki, bu cür iyrənc vasitələrlə siyasi partiyaya başqanlıq etməyə belə bir ad vermək olar - siyasi dələduzluq, saxtakarlıq və dövlət maraqlarına qarşı xəyanətkarlıq. Bu səbəbdən, partiyadan qovulan müsavatçıların əksəriyyəti, artıq öz hüquqları uğrunda ədalətli məhkəmə vasitəsilə mübarizə aparacağını vurğulamaqdadırlar.

Beləliklə, sözügedən məsələnin heç bir gizli məqamı qalmayıb. Sadəcə, ortada olan danılmaz faktları heç cür qəbul etmək istəməyən A.Hacılı dalana dirənildiyinin fərqinə varmaq istəmir. Bu faktor isə, əslində, onun vəziyyətini daha da çətinləşdirir. Çünki belə davam edərsə, Müsavat sıralarında ondan və saxtakar klanından başqa kimsənin qala biləcəyini ehtimal etmək olmaz. Bütün hallarda isə, Hacılı və ətrafı nə qədər nala-mıxa döyəcləsə də, fakt öz faktlığında qalmaqdadır...

**Rövşən NURƏDDİNOĞLU**

# Əli Kərimli saxtakarlığını necə ifşa edir?

## AXCP sədri danışdıqca, özünü daha çox açığa çıxarmış olur

***AXCP sədri Əli Kərimlinin sosial şəbəkə vasitəsi ilə saxta profillər açdırıb, "siyasət yürütməsi" kimsəyə sirr deyil. Lakin bu arada AXCP sədrinin saxtakarlığını sübuta yetirən daha bir maraqlı fakt ortaya çıxıb.***

Belə ki, Ə.Kərimlinin "facebook"dakı çıxışlarından bir neçəsini, AXCP gənclər komitəsinin profilində on-on beş nəfər bəyənsə də, onun öz profilindəki videoçıxışını "1,5 min" nəfər "bəyənib", üstəlik, "1.024" nəfər tərəfindən "paylaşım" olunub (?). Sual olunur:əgər Kərimlinin öz profilində bəyənmələrin sayı "mini" ötürsə, bu zaman AXCP-yə məxsus digər profillərdə həmin paylaşımların sayı on-on beş sayla ölçülür? Əslində, bununla bir daha sübut olunur ki, AXCP sədri yalnız özünə təskinlik verir və insanları saxta rəqəmlərlə aldadır, ya da saxtakarlığını həmin yalanları vasitəsi ilə ictimai rəyə zorla sırımaqla məşğuldur. Bu isə Ə.Kərimli barədə yenilik deyil...

### Onun maliyyə fırıldaqlarını sübuta yetirən yüzlərlə faktlar mövcuddur

AXCP sədrinin sosial şəbəkələrdəki anormal çağırışlarının nəticəsiz qalması da göz önündədir. O, hər dəfə hakimiyyətə qarşı müxtəlif ittihamlar irəli sürsə də, onların heç birini sübuta yetirə bilməyib. Bu günə qədər onun maliyyə fırıldaqlarını sübuta yetirən yüzlərlə faktlar ictimai rəyin diqqətinə çatdırılsa da, ona əldə etdiyi milyonlarla manat gəlirin haradan əldə edilməsi barədə çoxsaylı suallar ünvanlansa da, həmçinin, bank maxinasiyaları vasitəsi ilə korrupsiya əməlləri tam şəkildə isbatlansa da, nədənsə, həmin suallara cavab verə bilməyib. Gedib-gəlib, ölkənin neft gəlirləri ətrafında "alimlik" edən AXCP sədri hələ də anlamır ki, rahat şəkildə müxalifətçilik edib, pul qazandığı ölkənin sabitliyi, məhz dövlətin neft və s. gəlirlərindən əldə edilən vəsaitlər hesabınadır. Çünki bu, ona sərf etmir. Çünki özünü müxalifətin "lideri" hesab edir, ona görə də yalan, böhtan və təxribat xarakterli çıxışlar etməyi özünə necə deyərlər, "borc" bilir.



### AXCP sədri insanların şüuraltı hisslərinə müdaxilələr edib, özünü bütləşdirməyə cəhdlər göstərir

Başqa tərəfdən, sosial şəbəkədəki "söyüş qrupu" vasitəsi ilə ona qarşı çıxanları, onu rədd edənləri, siyasətini tənqid edənləri təhqirlər etdirən AXCP sədri sözügedən planının baş tutmadığını görüb, sərsəm-sərsəm çıxışlar edir, insanların şüuraltı hisslərinə müdaxilələr edib, özünü bütləşdirməyə cəhdlər göstərir. Amma alınmır.

Ə.Kərimli anlamır ki, bu gün sərhədlərimizin qorunmasından başlayaraq, Qarabağ və Naxçıvan cəbhəsində düşmənə layiqli cəzalar verən Şanlı Ordumuzun regionda ən güclü Silahlı Qüvvələr sırasında yer almasınadək əldə edilən hər bir uğurun əsasında dövlətin apardığı uğurlu neft və qeyri-neft siyasəti strategiyası dayanır. Bu pullar bilavasitə dövlətin daha güclü və daha qüdrətli olmasına xərclənib və xərclənməkdədir ki, indi bu siyasətin sayəsində Azərbaycanda müstəqil siyasət yürüdülür, heç bir xarici qüvvələr öz maraqlarını ölkəmizdə reallaşdırmağa cürət etmir. Təkcə, Gəncə hadisələrini göstərsək, Kərimlinin dalana dirənməkdən başqa yolu qalmaz.

### Elçibəyə qarşı murdar siyasətin aparıcı "siması"

Onu da xatırlatmaq olar ki, bu, həmin "həqiqət axtarışında" olan Ə.Kərimlidir ki, başının üzərindən asdığı mərhum lideri Əbülfəz Elçibəyin portreti altında oturmasına rəğmən, həmin liderinə qarşı ən çirkin kampaniyalar aparıb, onun ölümünə və həyatını itirməsinə səbəb olub. Əbəs yerə deyil ki, bu gün də AXCP sədrinin Elçibəyi zəhərlədərək, həyatına sui-qəsd etməsi faktları istintaq tərəfindən araşdırılmaqdadır. Əbülfəz Elçibəyə "siflis xəstəsi", "içki düşkünü" və "murdar alkaş" tipli ifadələri də, məhz Əli Kərimli AXCP daxilində yaratdığı qiyamçı "Yurd" qruplaşması, həmin qruplaşmanın əlinə keçirdiyi mətbuatlar vasitəsi ilə ictimailəşdirmişdi. Nəticədə, o, "liderim" dediyi Elçibəyin sədrlik kreslosunu mənəviyyatdan kənar və ləyaqətsizlik yolları ilə ələ keçirdi və indi partiyasında diktatura rejimi qurub, monarxiya idarəçiliyi yürüdür.

### Əli Kərimlinin Azərbaycan xalqı adından danışmağa, ümumiyyətlə, bu ölkədə yaşamağa hüququ varmı.?!

Ə.Kərimlinin oğlu Türkel Kərimli xarici ölkədə büdcəsi yüz minlərlə ölçülən ali təhsil müəssisəsində təhsil aldı, arvadı Samara isə biznes şəbəkəsi idarə etməkdədir. Ümumiyyətlə, AXCP-də despot siyasəti yürüdən Ə.Kərimli oğlu Türkel Kərimlini də özü kimi milli satqın və şəxsiyyətsizlik timsalında böyüdüb.

Biz, hələ AXCP sədrinin yaxınlarından və tərəfdaşlarından gizlətdiyi biznesləri barədə danışmırıq ki, həmin şəbəkəyə aptek, tikinti və s. profillər aid olunur. Məgər bütün bunlar Kərimlinin AXCP-ni monarxik və avtoritar idarəçilik rejimində saxlaması faktları hesab edilə bilməzmi?! Yaxud nəyə görə Ə.Kərimli "haqq-ədalət" bağırarkən, dövlətin pulunu "mənim pulum" adlandırarkən, əldə etdiyi yüz minlərlə gəlirlərdən sıravi cəbhəçilərə maaş ödəmir?! Nəyə görə Ə.Kərimli erməni lobbisinin dəstəyi ilə fəaliyyət göstərən Qərb qurumlarından aldığı maddi vəsaitləri gizlədir?! Axı lazım gələrsə, həmin faktlar ortaya çıxacağı halda, o, qarşısına çıxdığı sıravi cəbhəçilərin üzlərinə necə baxacaq?

Əslində, bu, onun üçün problem deyil. Siyasi fahişədən hər alçaqlığı gözləməyə dəyər! Məgər o oğlu T.Kərimlini ABŞ-da, bilavasitə Amerikanın erməni lobbisi tərəfindən təşkil olunmuş ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasının Azərbaycan əleyhinə dinləmələrinə göndərərək, qondarma "DQR"in prezidenti Bako Saakyanın oğlunun çıxışına əl çaldırmamışdımı?! Və bütün bunlardan sonra Ə.Kərimlinin Azərbaycan xalqı adından danışmağa, ümumiyyətlə, bu ölkədə yaşamağa hüququ varmı.?!

Artıq bu sualın da cavabını hüquq-mühafizə orqanları versələr, daha yaxşı olardı. Çünki bu məsələ get-gedə daha çox qabarmaqdadır...

**Rövşən NURƏDDİNOĞLU**

# Ulu Öndər Heydər Əliyevin siyasi irsində demokratiya, vətəndaş həmrəyliyi və azadlıq ideyaları

***Ulu Öndər Heydər Əliyev çıxışlarının birində demişdir: "Biz müxalifətə bundan sonra da böyük hörmətlə münasibət göstərəcəyik və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan cəmiyyətində müxalifət mövqeyində olan partiyalar, siyasi qüvvələr konstruktiv əməkdaşlıq mövqeyindən çıxış edəcəklər və bu da, Azərbaycanda həqiqi demokratiyanın inkişafı üçün daha geniş imkanlar yaradacaqdır. Bir sözlə, biz Azərbaycanda müxtəlif qüvvələrin olmasını təbii bir hal hesab edirik, eyni zamanda, dövlətin müxalif qüvvələrlə konstruktiv əməkdaşlığa həmişə hazır olduğunu bildiririk." Deməli, Ulu Öndər Heydər Əliyev demokratiyanı milli geosiyasi məkanda inkişaf dinamikasını düşünüb şərh etmiş, bununla, vətəndaş cəmiyyətinin, onun əsasını təşkil edən insan əxlaqı-azadlıq və vicdan azadlığının proqram-layihəsini irəli sürürdü. Bu dediklərimizi Heydər Əliyevin çıxışlarından gətirdiyiniz bir neçə iqtibasla təsdiqləyə bilərik:***

"Bəziləri belə hesab edir ki, Azərbaycanda demokratiya Böyük Britaniya, Fransada, yaxud ABŞ-dakı kimi olsun. Biz bu səviyyəyə çatmağa çalışırıq. Demokratiyanı bir-iki gündə əldə etmək mümkün deyil. Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir." "Yeni Azərbaycanda demokratiya prinsipləri bərqərar olmalı, hər yerdə insan azadlığı təmin edilməli, insan haqları qorunmalı, vicdan azadlığı, din azadlığı təmin edilməlidir". Demokratiya dövlətçiliyimizin əsasını təşkil edəcəkdir. Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi üçün bizim konstitusiyamız var, qanunlarımız var və Azərbaycan Prezidentinin iradəsi var."

Azərbaycan dövlətinin tarixi şəxsiyyəti, müstəqil respublikamızın böyük qurucusu Ulu Öndər Heydər Əliyevin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır." "Fikir müxtəlifliyi təbii hadisədir"; "Böyük siyasəti kiçik hissələrə qurban vermək olmaz" fikirləri demokratiya haqqında düşüncələrini ifadə edir.

Azərbaycan Respublikasının Konstitutsiyanın 56-cı maddəsi də vətəndaş cəmiyyətinin seçmək və seçilmək bəşəri və dünyəvi azadlıq hüququnu müdafiə edir: Seçki hüququ. I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə, referendumda iştirak etmək hüququ vardır. II. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə, referendumda iştirak etmək hüququ yoxdur. III. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər."

Məlumdur ki, vətəndaş cəmiyyəti lap qədim sivilizasiyalarından başlayaraq, konstitusiyalı dövlət hakimiyyəti dövrünə kimi həmişə fərdi sahibkarlıqla öz mövcudluğunu təsdiq etmişdir. Bu baxımdan, "Azad sahibkarlıq hüququ" I. Hər kəs imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. 11.Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir. 5-9-cu maddənin Azərbaycan Respublikasının Konstitusiyasında yer alması dövlət tərəfindən xalqa öz rifahını əldə etməsi üçün geniş imkanlar açmasının qarantı kimi diqqət cəlb edir.

Ölkənin iqtisadi həyatında bu qanunun təsdiqi özünü sahibkarlığın inkişafının geniş üfüqlərində aydın göstərdi. Məsələn, Azərbaycan Respublikası Nazirlər Kabineti 1997-ci ildə 'Dövlət büdcəsinin "Kiçik sahibkarlığa investisiya yardımı" maddəsində nəzərdə tutulan vəsaitin bölüşdürülməsi və istifadəsi haqqında Əsasnamə"ni təsdiq etdikdən sonra Sahibkarlığa Yardım Milli Fondu sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi işi həyata keçirilmişdir.

Heç də təsadüfl deyil ki, bununla, həm ölkənin iqtisadi gücü artdı, həm də vətəndaş cəmiyyətinin azad fərdi fəaliyyət, müstəqil inkişaf, eyni zamanda, demokratik əsasları xeyli möhkəmləndi.

Biz Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin siyasi irsində dövlət quruculuğu məsələlərini fəlsəfi-siyasi və fəlsəfi-etik kontekstlərdən nəzərdən keçirdiyimiz bu yarımfəsildə, Onun vətəndaş cəmiyyətinin inkişafına bağlı gördüyü böyük işlərdən bəhs edərkən, bu istiqamətdə çoxpartiyalılıq və siyasi partiyalar məsələsini qeyd etməyə bilmərik.

Belə ki, demokratiyanı, plüralizmi bir kamil şəxsiyyət kimi qəbul edən və bu amillərin dövlətin, eləcə də, vətəndaş cəmiyyətinin sütünları olaraq gücləndirən Ulu Öndər gənc müstəqil Azərbaycan dövlətində çoxpartiyalılıq siyasətini də uğurla həyata keçirmişdir. Bu gün ölkəmizdə sıralarında 500 mindən çox vətəndaşımızı birləşdirən, Heydər Əliyev tərəfindən əsası qoyulmuş və 2004-cü ilə kimi Sədri olduğu Yeni Azərbaycan Partiyası da daxil olmaqla, rəsmi dövlət tərəfindən qeydiyyata alınmış 56 siyasi partiya fəaliyyət göstərir. Bunlar arasında, təbii olaraq, müxalifət partiyaları da vardır.

Heydər Əliyev 1993-cü ildəki andiçmə mərasimindəki nitqində həmin vaxt müxalifətyönlü siyasi partiyaların fəaliyyəti ilə bağlı narahat fikirlərini açıqlayarkən, dövlət siyasətində onların yerini və rolunu labüd hesab etdiyini vurğulayaraq, bəyan edirdi ki, "Siyasi partiyalar, hərəkatlar Azərbaycanda sərbəst fəaliyyət göstərə bilərlər. Lakin heç bir siyasi partiyanın və ya hərəkatın, ictimai-siyasi təşkilatın silahlı dəstələri və silahlı qüvvələri ola bilməz!"

Ulu Öndər göstərirdi ki, ölkəmizdə demokratiya müxtəlif konfessiyaların Azərbaycanda başlıca dinimiz olan islam dininin, xristian-pravoslav və yəhudi dinlərinin səyləri ilə əldə edilmişdir. Hesab edirəm ki, bizim, nəinki əldə olunmuş nailiyyətləri möhkəmləndirməyə, həm də daha çox iş görməyə və bütün dünyaya nümayiş etdirməyə imkanımız var ki, əhalisinin əksəriyyəti baxımından, müsəlman ölkəsi olan Azərbaycanda, həqiqətən, demokratik-hüquqi, dünyəvi dövlət qurulur, burada dünyəvi cəmiyyət artıq formalaşmışdır, toleranllıq prinsipi, nəinki mövcuddur, həm də hakim mövqe tutur. Ulu Öndər bu tarixi çıxışında regionda dini zəmində baş vermiş bir münaqişə ilə bağlı təəssüratını və əslində, həmin görüşün təşkil olunmasının əsas səbəbini açıqlayarkən, konkret olaraq, vətəndaş cəmiyyətini düşündürən vicdan azadlığı məsələsini önə çəkmişdir: "Siz bilirsiniz, son vaxtlar müəyyən hallar olub ki, bizim inzibati orqanlar bəzi dinlərin, o cümlədən, lüteran, apostol məzhəblərinin nümayəndələrinə qarşı bəzi inzibati tədbirlər görüblər. Yəni bəziləri hesab edib ki, baptistlərin, daha hansısa sektanın ayrı-ayrı nümayəndələri azərbaycanlıları bu dinə döndərməyə, başqa sözlə, müsəlmanı xristian, baptist, katolik, nə bilim, daha nə etməyə cəhd göstərirlər. Açıq deyirəm, bu işdə ciddi səhvlərə yol verilmişdir. Mən bunu eşidəndə, xüsusən də, Amerika Birləşmiş Ştatlarının bəzi konqresmenlərindən, Azərbaycanın böyük dostu, ABŞ senatoru Braunbekdən mənə bu hallarla əlaqədar narahatlıq bildirən məktublar gələndə, Təhlükəsizlik Şurasının xüsusi iclasını çağırdım. Müvafiq rəhbər işçiləri dinlədim, vəziyyətlə tanış oldum, lazımi göstərişlər verdim. Göstərişlər isə ondan ibarətdir ki, insan azaddır, insan azadlığı bütün sahələrdə azadlığın olmasını nəzərdə tutur. Biz şəxsiyyət azadlığını Azərbaycanda demokratik cəmiyyətin başlıca amili elan etmişik. Demokratikləşdirmə və demokratik dövlət quruculuğu, demokratik cəmiyyətin formalaşdırılması, hər şeydən öncə, şəxsiyyət azadlığını, insan azadlığını, söz azadlığını, mətbuat azadlığını, bir sözlə, bütün Azərbaycan vətəndaşları qarşısında tam qətiyyətlə bəyan edirəm."

Vətəndaş Cəmiyyətinin daim müdafiəsinə qalxdığı vicdan azadlığı məsləsi, onun əsas meyarlarından olan din siyasəti həm Heydər Əliyevin imzalamış olduğu 1995-ci il Azərbaycan Respublikasının Konstitusiyasında, həm də Ulu Öndərin bütün siyasi fəaliyyət platformasında ən mərkəzi yerdə dayanmış və ölkə vətəndaşlarının vicdan azadlığının təminatçısı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu ildə ölkəmizdəki dini konfessiyaların başçılarını qəbul edərkən, vicdan azadlığı ilə bağlı təkcə fəlsəfi-əxlaq nöqteyi-nəzərindən deyil, eyni zamanda, siyasi-fəlsəfi baxımından dərin məzmunlu əhəmiyyətli fikirlərini bölüşmüşdür: "...Bizim xalqımızın, dövlətimizin son illərdəki ən mühüm nailiyyətlərindən biri odur ki, nəinki hansısa münaqişəyə, hətta azərbaycanlılar tərəfindən digər xalqlara və ya müsəlman dini tərəfindən xristianlığa və əksinə, xristian dini, yəhudi dini tərəfindən müsəlman dininə pis yanaşılması hallarını tamamilə aradan qaldıra bilmişik. Bu, Azərbaycanın reallığıdır. Bu baxımdan, hesab edirəm, biz cəsarətlə deyə bilərik ki, Birləşmiş Millətlər Təşkilatının, YUNESKO-nun tolerantlığa nail olmaq barədə çağırışını uğurla həyata keçiririk. Əlbəttə, Azərbaycanda mövcud olan millətlərarası, dinlərarası, etnik vəziyyət yüksək qiymətə layiqdir.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*





# "Qayğı ilə addım-addım"

***Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı gənclər birliyi, "Qayğı-Sağlam Nəsil Naminə" İctimai Birliyi və Azərbaycan Dillər Universitetinin birgə təşkilatçılığı ilə "Qayğı ilə addım-addım" adlı növbəti maarifləndirici konfrans keçirilib. Beynəlxalq Əlillər Günü ərəfəsində baş tutan tədbirin məqsədi bu qəbildən olan şəxslərin cəmiyyətdə əhəmiyyətini vurğulamaq, onların potensialının üzə çıxarılması istiqamətində aparılan işlərin vacibliyini nəzərə çatdırmaq olub.***

Əvvəlcə, birliyin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub. YAP Nizami rayon təşkilatı gənclər birliyinin və "Qayğı-Sağlam Nəsil Naminə" İctimai Birliyinin sədri Sevinc Abdullayeva birliyin, 6 ilə yaxın müddət ərzində gördüyü işlərdən və layihələrdən danışıb: "Fəaliyyət müddətimizdə "Qayğı" ailəsi olaraq xeyli uğurlu layihələrə imza atmışıq. Onlarla Daun sindromlu və Serebral iflicli uşağın müalicəsi və əməliyyatı həyata keçirilib. Yüzlərlə tədbirimiz və görüşümüz baş tutub. Vaxtaşırı təşkil olunan şənliklər, ekskursiyalar, tanınmışlarla yığıncaqlar, konsertlər, tələbələrlə, gənclərlə keçirilən görüşlər onların həm ünsiyyət vərdişlərinin formalaşmasına, həm də mənəviyyat və dünyagörüşü baxımından inkişafına kömək olur. Yeni insanlarla, cəmiyyətin müxtəlif təbəqələrindən olan, bir-birindən fərqli şəxslərlə görüşmək həm uşaqlara ruh yüksəkliyi bəxş edir, həm də həyata daha geniş bucaqdan baxmağa sövq edir. "Sevgi və ümidlə həyata qalib gələk!", "Biz də hamı kimiyik!", "Birlikdə gülümsəyək!" kimi şüarlarla keçirilən görüşlər və aksiyalar, "Biz Günəşin Şəfəqləriyik" devizi ilə Azərbaycanda, ilk dəfə olaraq, Daun sindromlu uşaqların da iştirakı ilə baş tutan dəb nümayişi, Daun sindromlu uşaqların peşəkar idmançılarla birgə idman Olimpiyadası kimi tədbirlərlə bir daha onların nəyə qadir olduqlarını göstərməyə çalışdıq."

Tədbirdə, həmçinin, ADU-nun "Tərcümə" fakültəsinin dekanı Bənövşə Məmmədova da çıxış edərək, bu tipli maarifləndirici görüşlərin Vətənimizin sabahı, gələcəyin ziyalıları və valideynləri olan tələbələrlə keçirilməsinin böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, hər kəsi əlilliyi olan şəxslərlə münasibətdə daha həssas və diqqətli olmağa çağırıb.

Sonra jurnalist Xülya Cəfərova "fərqli" doğulan insanların KİV-də, mediada və populyar mədəniyyətdə düzgün təqdim edilməsinin önəmi barəsində danışıb. Həmçinin, psixoloq Günay Bədəlzadə Daun sindromlu və Serebral iflicli uşaqların psixi inkişaf xüsusiyyətləri haqqında məlumat verib.

Tədbirin sonunda Daun sindromlu uşaqların bir-birindən rəngarəng çıxışlarına yer verilib.

***RAMİL***

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Əsədova Avtab Natiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Bələdiyyə seçkiləri ilə bağlı Pirallahıda seçicilərlə görüş keçirilib



Dünən 23 dekabr 2019-cu il tarixdə ölkəmizdə keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində Pirallahı rayonu Çilov qəsəbəsində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş şəxslərin seçicilərlə görüşü keçirilib. Görüşü giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov rayon təşkilatı tərəfindən görülən işlər barədə məlumat verib, qarşıdan gələn bələdiyyə seçkilərinin əhəmiyyətindən danışıb, eyni zamanda, ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, gənclərin idarəetmə orqanlarında və seçki proseslərindəki iştirakının artdığını bildirib. Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov çıxışında Azərbaycanda ötən dövr ərzində bələdiyyə institutunun formalaşdığını və bu seçki prosesində də gənclərin rolunun əvəzsiz olduğunu qeyd edib. Seymur Orucov qarşıdan gələn bələdiyyə seçkilərində gənc və xanım namizədlərin say çoxluğunun iş prosesinə müsbət təsir göstərəcəyinə əminliyini bildirib və bütün namizədlərə uğurlar arzulayıb.



Daha sonra Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı gənclər birliyinin sədri Rüfət Əhmədov çıxış edərək, respublikamızda dövlət-gənclər siyasəti, Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə əsasını qoyduğu ənənələrin ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini, bunun nəticəsi olaraq, dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində də layiqli gənc namizədlərin sayının kifayət qədər çox olduğunu və bu yöndə YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin də yaxından iştirak etdiklərini bildirib. Tədbirdə partiya fəalı Tosif Mahmudov və bələdiyyə üzvlüyünə namizədlərdən Məmləkət Qaraçobanova, Amil Məmmədov Azərbaycanın və regionun ən güclü siyasi partiyası olan YAP-ın yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazandığını və partiyanın Prezident İlham Əliyevin Sədrliyi ilə dövlətimizin inkişafı və xalqımızın əmin-amanlıq içində yaşaması uğrunda mühüm töhfələr verdiyini vurğulayıblar.

***RÖVŞƏN***

# "AzerTelecom" və KOBİA əməkdaşlıq edəcək




Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral internet provayderi "AzerTelecom" şirkəti dekabrın 3-6-dək Bakıda keçirilən "Bakutel-2019" 25-ci Yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisi çərçivəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə əməkdaşlıq barədə Niyyət Protokolu imzalayıb.

Sənədi "AzerTelecom" şirkətinin baş direktoru Fuad Allahverdiyev və KOBİA-nın idarə heyətinin sədri Orxan Məmmədov imzalayıblar. Sənəd kiçik və orta biznesin inkişafının dəstəklənməsi çərçivəsində qarşılıqlı fəaliyyətin təşkili, dövlət və özəl sektor arasında praktik fəaliyyətin genişləndirilməsi, innovativ təşəbbüslərin realizasiyası, innovasiya infrastrukturundan birgə istifadə edilməsi, startapların, kiçik və orta biznes subyektlərinin potensialının artırılması ilə bağlı dəstəyin göstərilməsi, "AzerTelecom" şirkətinin icra etdiyi "Azerbaijan Digital Hub" proqramı çərçivəsində birgə tədbirlərin təşkili və digər əlaqəli fəaliyyəti özündə əks etdirir.

Qeyd edək ki, "Bakutel-2019" sərgisində həmçinin, KOBİA-nın təşkilatçılığı, magistral internet provayderi "AzerTelecom" şirkətinin dəstəyi ilə 10 startap və kiçik sahibkarlıq subyektinin məhsul və xidmətləri ayrıca stenddə nümayiş olunur. Sərgi dekabrın 6-dək davam edəcək.

"AzerTelecom" Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan "Bakcell" şirkətinin törəmə müəssisəsidir. "AzerTelecom" şaxələnmiş şəbəkə vasitəsilə Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. Hazırda "AzerTelecom" şirkəti Azərbaycanın rəqəmsal mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" (ADH) proqramını icra edir. Proqramın reallaşması ölkənin Milli IT və Milli İnnovasiya strategiyası üçün mühüm təməl yaradır və rəqəmsallaşmanın sürətlənməsinə, rəqəmsal iqtisadiyyata çevik transformasiyaya, IT arxitekturasının inkişafına mühüm töhfə verəcək.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600